RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 156 (9035) ÇƏRŞƏNBƏ, 27 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Antoni Blinken İlham Əliyevə zəng edib





İyulun 25-də Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Dövlət katibi Antoni Blinken ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini qeyd edərək, Tbilisidə iki ölkənin xarici işlər nazirlərinin görüşünü və birbaşa dialoqunu müsbət qiymətləndirdiyini bildirdi.

Prezident İlham Əliyev Tbilisidə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsini iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqların başlanması istiqamətində ilk addım kimi qiymətləndirdi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan artıq sülh müqaviləsinin hazırlanması üzrə öz komissiyasının tərkibini formalaşdırıb və Ermənistan tərəfindən də eyni addımın atılmasını gözləyir.

Antoni Blinken, həmçinin ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğunu ifadə etdi.

→ 2



# ABŞ Azərbaycanın yaratdığı yeni reallıqları tam qəbul edir

## İlham Əliyev: "İndi biz öz haqq işimizə qat-qat artıq dəstək görürük"

**44 günlük İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda yeni reallıqlar yaradıb. Əsas reallıq odur ki, Azərbaycan dövləti 30 ilə yaxın müddət ərzində söz anlamayan Ermənistanı döyüş meydanında məğlubiyyətə uğradaraq, hərbi yolla işğal olunmuş torpaqlarını azad etdi. Bu qələbə ilə Azərbaycan regionda sülhə və təhlükəsizliyə əsas təhdid və maneə olan Ermənistanın işğalçılıq siyasətinə son qoydu.**

→ 2

## HEÇ KİM qanundan üstün ola bilməz

Prezident İlham Əliyev məmurlara tövsiyə və tapşırıqları ilə yanaşı, ciddi xəbərdarlığını da etdi



Prezident İlham Əliyev yüksək rifaha və mütərəqqi idarəçiliyə xidmət edən islahatlarını davam etdirir. İyulun 25-də Prezident İlham Əliyev daha 3 rayona - Masallı, Lerik və Göygölə yeni icra hakimiyyəti başçıları təyin etdi və hər zaman olduğu kimi, yeni təyin olunmuş icra hakimiyyəti başçılarını qəbul edərək tapşırıqlarını, ciddi tövsiyələrini verdi.

Regionların sosial-iqtisadi inkişafından, iqtisadi layihələrin icrasından söz açan dövlət başçısı, eyni zamanda şəhid ailələrinə, qazilərə dövlət qayğısından danışaraq bütün məmurlara bununla bağlı ciddi xəbərdarlıqlarını da etdi. Hər zaman olduğu kimi, bu dəfə də Prezident yeni kadrlardan gözləntilərini açıqladı, onların idarəçilikdə daha çox bu məsələlərə üstünlük verməli olduqlarını da bildirdi - vətəndaşlarla bir yerdə olmaq, daim xalqın qayğıları ilə yaşamaq, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizə aparmaq, rayonların sosial-iqtisadi inkişafına töhfə vermək, vətəndaş məmnunluğunu, həmçinin rayonların inkişafı üçün daxili və xarici investisiyaların cəlb edilməsini təmin etmək.

→ 3

## İnvestisiya ünvanını dəyişir



Bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da iqtisadiyyatın dinamikasını təmin edən faktorlardan biri investisiya qoyuluşunun davamlı olmasıdır. Prezident İlham Əliyevin ölkədə geniş iqtisadi islahatlara başlamazdan öncə bu sahədə hüquqi bazasının yaradılması ilə bağlı gördüyü tədbirlər də həmin şərtdən qaynaqlanır. Bununla Azərbaycan postsovet məkanında ən münbit investisiya mühiti olan ölkəyə çevrilmişdir.

Sahibkarlar sərmayə yatırarkən risk etməyi sevməzlər. O səbəbdən sərmayənin etibarlı, yəni qanunla qorunmasına diqqət yetirirlər. Xüsusilə xarici investorlar bu işdə daha həssasdırlar və gəldikləri ölkənin qanunvericilik bazasını diqqətlə öyrənirlər.

→ 5

## Yeni strategiya yeni uğurlara hədəflənib



Azərbaycan Prezidenti İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" mahiyyət etibarı ilə qarşıdakı illərdə ölkənin bütün istiqamətlərdə inkişafını təyin edən vacib sənəddir. Sənəddə milli prioritetlərin əsas inkişaf istiqamətləri öz əksini tapmışdır.

Əvvəlcə onu qeyd etmək lazımdır ki, müasir dünya böhran və təhlükələrlə üzləşmək ərəfəsindədir. COVID-in geri dönməsi, meymunçiçəyi deyilən yeni virusun yayılması, üstəlik, bir sıra ölkələr arasında münaqişələrin və qarşıdurmaların müharibə həddinədək dərinləşməsi bəşəriyyətin ciddi çətinliklərlə üzləşəcəyini qaçılmaz edir.

→ 5

## Şuşa tezliklə doğma sakinlərini qarşılayacaq

Gələn ilin sonlarında öz evlərinə qayıdacaq şuşalıların mədəniyyət paytaxtımızdan xoş sədası gələcək



"Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu, həqiqətdir. Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, Şuşanı biz dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik..."

Prezident İlham Əliyevin ötən il Şuşada görkəmli şair Molla Pənah Vaqifin bərpa edilmiş məqbərəsi önündəki çıxışında qürurla səsləndirdiyi kimi, artıq tarixi şəhərimiz Şuşa sürətlə dirçəlir, ən ümdəsi tezliklə doğma sakinlərinə əbədi qovuşacağının sevincini yaşayır.

→ 4

## Meymunçiçəyi sürətlə yayılır

Virus qısa müddət ərzində 75 ölkədə qeydə alınıb

İlk dəfə mayın 7-də İngiltərədə aşkarlanan meymunçiçəyi artıq 75 ölkəyə yayılıb, 17 minə yaxın insanda yoluxma faktı qeydə alınıb. Avropa ölkələrində başlayan meymunçiçəyi virusu qısa müddət ərzində dünyanın digər qitələrinə də keçib.

Son statistikaya görə, İtaliyada 407 nəfərdə meymunçiçəyi xəstəliyi aşkarlanıb. Bu barədə məlumat verən ölkənin Səhiyyə Nazirliyi qeyd edib ki, ölkədə epidemioloji vəziyyət nəzarət altındadır. Yaponiyada da Avropadan qayıdan 30 yaşlı vətəndaşda meymunçiçəyi aşkar edilib. Yoluxmuş şəxs xəstəxanaya yerləşdirilsə də, onun səhhəti barədə hələlik ətraflı məlumat verilməyib.

Virusla bağlı narahatlıq doğuran əsas məqam isə ABŞ-da ilk dəfə uşaqlar arasında meymunçiçəyinin aşkar edilməsidir. Kaliforniya və Vaşinqtonda yaşayan azyaşlılar xəstəxanaya yerləşdiriliblər və müalicələri davam edir.

### Azərbaycanda meymunçiçəyi qeydə alınmayıb

Azərbaycanda meymunçiçəyinə yoluxma halı qeydə alınmayıb. Lakin mütəxəssislər qonşu ölkələrdə virusa yoluxma hallarını, turizm və istirahət mövsümünü nəzərə alaraq, Azərbaycanda da infeksiyaya rast gəlinəcəyini istisna etmirlər.

→ 6

## İsveçrədə "QARABAĞ" ruzigarı

Ağdam klubu bu gün səfərdə "Sürix" komandası ilə qarşılaşacaq



"İsveçrə "Sürix"i oyun üslubuna görə bizə uyğun olmayan rəqibdir. Hər bir halda Bakıda rəqibi daha yaxından tanıdıq. Səfərə böyük ümidlə gedirik". Bu sözləri "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov UEFA Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində "Sürix"ə qarşı keçiriləcək cavab oyunu üçün İsveçrəyə yollanarkən deyib.

Həqiqətən, "Sürix"in əlavə üstünlüyü ondan ibarətdir ki, matç ərzində iki oyun planına dönməyi bacarır. Bakıda keçirilən ilk matçda rəqib topu təmsilçimizə verib müdafiə olunmaqla kifayətlənərək, yaranmış əks-hücumlardan faydalanmaq istədi. Bundan maksimum yararlanan Ağdam klubu oyunu meydançanın rəqibə aid hissəsinə yıxmaqla, daha çox topa sahib olub "Sürix"in müdafiə xəttini yarmağı bacardı.

→ 8

# Antoni Blinken İlham Əliyevə zəng edib

İyulun 25-də Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Dövlət katibi Antoni Blinken ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini qeyd edərək, Tbilisidə iki ölkənin xarici işlər nazirlərinin görüşünü və birbaşa dialoqunu müsbət qiymətləndirdiyini bildirdi.

Prezident İlham Əliyev Tbilisidə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsini iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqların başlanması istiqamətində ilk addım kimi qiymətləndirdi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan artıq sülh müqaviləsinin hazırlanması üzrə öz komissiyasının tərkibini formalaşdırıb və Ermənistan tərəfindən də eyni addımın atılmasını gözləyir.

Antoni Blinken həmçinin ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğunu ifadə etdi.

Söhbət zamanı bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı Komissiyası arasında enerji sahəsində imzalanmış anlaşma memorandumunun əhəmiyyəti məmnuniyyətlə qeyd olundu.

Sonra dövlətimizin başçısı humanitar məsələlərə toxunaraq Birinci Ermənistan-Azərbaycan müharibəsindən 3890 nəfərdən artıq azərbaycanlının itkin düşmüş şəxs hesab olunduğunu bildirdi və Ermənistan tərəfinə dəfələrlə müraciət edilməsinə baxmayaraq, kütləvi məzarlıqların yerləri barədə məlumat verilməməsinə diqqəti çəkdi.

Prezident İlham Əliyev Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistan tərəfindən kütləvi şəkildə minaların basdırıldığını və müharibənin başa çatmasından bəri 240 nəfərdən artıq vətəndaşımızın mina partlayışlarında həlak olduğunu və ya sağlamlığını itirdiyini bildirdi.

Telefon danışığı zamanı əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

***Prezidentin Mətbuat Xidməti***

# ABŞ Azərbaycanın yaratdığı yeni reallıqları tam qəbul edir

## İlham Əliyev: "İndi biz öz haqq işimizə qat-qat artıq dəstək görürük"

44 günük İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda yeni reallıqlar yaradıb. Əsas reallıq odur ki, Azərbaycan dövləti 30 ilə yaxın müddət ərzində söz anlamayan Ermənistanı döyüş meydanında məğlubiyyətə uğradaraq hərbi yolla işğal olunmuş torpaqlarını azad etdi. Bu qələbə ilə Azərbaycan regionda sülhə və təhlükəsizliyə əsas təhdid və maneə olan Ermənistanın işğalçılıq siyasətinə son qoydu.

### Azərbaycan milli maraqlarını daim qətiyyətlə qoruyur

Ermənistanın kapitulyasiyasının siyasi və hüquqi təsdiqi olan 2020-ci ilin 10 noyabr üçtərəfli Bəyannaməsində müəyyən reallıqlar öz əksini tapıb. Bunlardan biri bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsidir. Sənədə əsasən, Ermənistan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycanın qərb rayonları və Naxçıvan arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verməklə bağlı öhdəlik götürüb. Bəyannamədə Naxçıvanla Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası məsələsi də əksini tapıb.

Müharibəni qələbə ilə başa vuran Azərbaycan hərb meydanındakı uğurunu siyasi-diplomatik sahədə davam etdirməkdədir. Bu məsələdə ən böyük nailiyyət odur ki, artıq bütün dünya 44 günlük müharibənin nəticələrini tanıyır, regionda yaranmış yeni reallıqları bölüşür. Azərbaycanın yürütdüyü qətiyyətli siyasətin nəticəsi olaraq ermənipərəst mövqeyi ilə tanınan Qərb siyasi dairələrinin də müharibənin nəticələrini qəbul etməkdən başqa yolları qalmayıb. Tarixi qələbəmizin memarı olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev müharibədən sonra da Ermənistanın müdafiəsinə qalxmış dövlətlərə və siyasi mərkəzlərə öz yerlərini göstərdi. Bir daha sübut olundu ki, Azərbaycanı öz yolundan heç bir qüvvə dayandıra bilməz və dövlətimiz istənilən vasitə ilə milli maraqlarını təmin etməyə qadirdir. "Nəticədə bu gün beynəlxalq təşkilatlar - BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB bu reallıqları tamamilə qəbul ediblər. Biz bunu həm formal mənada, həm də xalis ünsiyyətdə görürük. Üstəlik, mən beynəlxalq strukturların çoxsaylı rəhbərləri və dövlət başçıları ilə əlaqədə olarkən müşahidə edirəm, indi biz öz haqq işimizə qat-qat artıq dəstək görürük", - deyə Prezident İlham Əliyev bildirib.

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsləri də respublikamızın mövqeyi ilə uzlaşır. İlk növbədə Aİ də hesab edir ki, artıq gələcəyə baxmaq, yeni reallıqlar çərçivəsində münasibətləri normallaşdırmaq lazımdır. Eyni zamanda münasibətləri normallaşdırmaq üçün başlanan müzakirələrdə də Aİ Azərbaycanın yaratdığı yeni reallıqlardan çıxış edir. Qurumun Azərbaycan və Ermənistan arasında sərhədlərin demarkasiyası və delimitasiyasına, iki ölkə arasında sülh müqaviləsinin hazırlanmasına, nəqliyyat-kommunikasiya xətlərinin açılmasına verdiyi dəstəyi, bu məsələləri daim diqqətdə saxlaması bunu təsdiqləyir.

### Ağ Ev öz dəstəyini göstərməyə hazırdır

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində edilən təşəbbüsləri, bu prosesdə müzakirə olunan məsələləri ABŞ da dəstəkləyir. İyulun 25-də Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinkenin Prezident İlham Əliyevə zəngi zamanı toxunulan məsələlər bunu bir daha təsdiqləyir.

Xatırladaq ki, hələ may ayında ABŞ Prezidenti Cozef Baydenin Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda respublikamızın beynəlxalq məsələlərlə bağlı mövqeyi, qlobal təhlükəsizliyə dair fəaliyyəti təqdir olunmuşdu. Eyni zamanda Baydenin məktubu onu göstərmişdi ki, ABŞ İkinci Qarabağ müharibəsində qələbə qazanan Azərbaycanın regionda yaratdığı reallıqları bölüşür. Belə ki, məktubda yer alan "İndi Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün mühüm imkana bəslənən ümid zamanıdır. Amerika Birləşmiş Ştatları bütün Qafqaz və Trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və Azərbaycanın iqtisadi, nəqliyyat və insanlararası əlaqələrinin qurulmasına kömək etməyə hazırdır" ifadəsi təsdiq edirdi ki, Vaşinqton İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni reallıqları qəbul edir və dəstəkləyir.

Dövlət katibi Antoni Blinken isə iyulun 25-də etdiyi telefon zəngi zamanı ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini qeyd edərək Tbilisidə iki ölkənin xarici işlər nazirlərinin görüşünü və birbaşa dialoqunu müsbət qiymətləndirdiyini bildirib.

Söhbət zamanı Prezident İlham Əliyev Tbilisidə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsini iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqların başlanması istiqamətində ilk addım kimi qiymətləndirib. Azərbaycan Prezidenti qeyd edib ki, ölkəmiz artıq sülh müqaviləsinin hazırlanması üzrə öz komissiyasının tərkibini formalaşdırıb və Ermənistan tərəfindən də eyni addımın atılmasını gözləyir.

ABŞ Dövlət katibi həmçinin ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, ABŞ Dövlət katibi Antoni Blinken aprel ayında Brüsseldə keçirilən üçtərəfli görüşdən əvvəl Prezident İlham Əliyevə zəng etmiş, Avropa İttifaqının dəstəyi ilə Azərbaycan və Ermənistan rəhbərləri arasında keçiriləcək görüşə ABŞ-ın önəm verdiyini bildirmişdi.

Bütün bunlar bir daha göstərir ki, Azərbaycanın Zəfəri və müharibədən sonra yaratdığı yeni reallıqlar dünyanın aparıcı siyasi dairələri tərəfindən qəbul olunur. Bu isə öz növbəsində Prezident İlham Əliyevin müdrik siyasətindən və uğurlu diplomatiyasından xəbər verir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

1. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 890; 2016, № 3, maddə 428, № 11, maddə 1768, № 12, maddə 2016; 2017, № 5, maddə 739; 2018, № 11, maddələr 2187, 2200; 2019, № 1, maddə 29, № 2, maddə 201, № 6, maddə 1005; 2020, № 7, maddə 857; 2021, № 5, maddə 429) 2.3-cü maddəsinə "su" sözündən sonra ", istilik" sözü əlavə edilsin.

2. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1109; 2017, № 11, maddə 1973; 2018, № 11, maddə 2232, № 12 (I kitab), maddə 2520; 2019, № 2, maddə 202, № 6, maddə 1006; 2020, № 3, maddə 224; 2021, № 3, maddə 216, № 5, maddə 429; 2022, № 2, maddə 94) 2.1-ci maddəsinə ikinci halda "su" sözündən sonra ", istilik" sözü, "paylayıcı şəbəkəyə" sözlərindən sonra "və ya istilik şəbəkəsinə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2022-ci il*

# "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 547-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2011-ci il 15 fevral tarixli 383 nömrəli və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 547-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 87; 2015, № 8, maddə 910; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 377, № 10, maddə 1778; 2018, № 10, maddə 2001; 2019, № 5, maddə 857; 2020, № 6, maddə 707; 2021, № 5, maddə 450) ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin 1.5-2-ci, 4.4-cü bəndlərinə, 5.1-ci bəndinin birinci cümləsinə və 3.4.14-1-ci yarımbəndinə ikinci halda "su" sözündən sonra ", istilik" sözü, "paylayıcı şəbəkəyə" sözlərindən sonra "və ya istilik şəbəkəsinə" sözləri əlavə edilsin.

2. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1132; 2016, № 8, maddə 1384, № 10, maddə 1633; 2017, № 4, maddə 565, № 11, maddə 1997; 2019, № 2, maddələr 247, 249, № 3, maddə 415, № 4, maddə 621, № 6, maddə 1032; 2020, № 3, maddə 243, № 6, maddə 706; 2021, № 5, maddə 450; 2022, № 4, maddə 315) 1.1-ci bəndinə ikinci halda "su" sözündən sonra ", istilik" sözü, "paylayıcı şəbəkəyə" sözlərindən sonra "və ya istilik şəbəkəsinə" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 547-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2022-ci il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında malların mənşəyinin sertifikatlaşdırılmasının elektron sisteminin qarşılıqlı tətbiqi haqqında Protokol"un təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il martın 4-də Moskva şəhərində və martın 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında malların mənşəyinin sertifikatlaşdırılmasının elektron sisteminin qarşılıqlı tətbiqi haqqında Protokol" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsinlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2022-ci il*

# "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1464; 2016, № 11, maddə 1803; 2017, № 5, maddələr 791, 802, № 7, maddə 1369; 2018, № 4, maddə 699; 2019, № 3, maddə 402, № 5, maddə 856; 2020, № 2, maddə 103, № 6, maddə 698, № 7, maddə 868; 2021, № 1, maddə 36, № 2, maddə 125) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2022-ci il*

# Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi hazırlanır



Azərbaycan Respublikası Milli Məclisində təmsil olunan bütün siyasi partiyaların nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ilə bağlı Milli Məclis Sədrinə müraciət ediblər. Milli Məclisdən verilən məlumata görə, müraciətdə ölkəmizin müasir inkişaf reallıqlarına cavab verən yeni qanunun hazırlanmasının zəruriliyi vurğulanır.

Milli Məclisin Sədri Sahibə Qafarova artıq yeni qanun layihəsinin hazırlanması haqqında müvafiq tapşırıqlar verib və sənədin hazırlanması üzrə işə başlanılıb.

Bu qanunun ictimai əhəmiyyətini nəzərə alaraq, Azərbaycanda dövlət qeydiyyatına alınmış siyasi partiyaların yeni qanun layihəsi ilə bağlı təkliflərini Azərbaycan Respublikası Milli Məclisinə təqdim etmələri xahiş olunur.

***"Azərbaycan"***

# Ötən sutka ərzində erməni silahlı birləşmələri ümumilikdə 9 dəfə təxribat xarakterli silahlı insident törədib

Ötən sutka ərzində erməni silahlı birləşmələri tərəfindən ümumilikdə 9 dəfə təxribat xarakterli silahlı insident törədilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bunlardan ikisi Azərbaycan-Ermənistan dövlət sərhədinin Qarakilsə rayonunun Saybalı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərdən ordumuzun Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atəşə tutmaqla baş verib.

Digər yeddi insident isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Tərtər, Ağdam, Xocavənd və Xocalı rayonları istiqamətlərində yerləşən mövqelərini fasilələrlə müxtəlif çaplı silahlardan atəşə tutmaqla qeydə alınıb.

Bütün hallarda ordumuzun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

# Azərbaycan və Misirin xarici işlər nazirləri qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər üzrə fikir mübadiləsi aparıblar

İyulun 26-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Misir Ərəb Respublikasının xarici işlər nazirinin Avropa məsələləri üzrə köməkçisi İhab Talaat Nasrın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov qonağı salamlayaraq iki xalq arasında mövcud olan tarixi bağlar əsasında ikitərəfli münasibətlərin inkişafını vurğulayıb. Azərbaycan və Misir arasında siyasi dialoqun səviyyəsindən məmnunluqla danışan nazir iki ölkənin xarici işlər nazirlikləri arasında həyata keçirilən mütəmadi siyasi məsləhətləşmələrin, habelə qarşılıqlı səfər mübadilələrinin əlaqələrin inkişafına töhfə verdiyini bildirib. Nazir ikitərəfli əlaqələrin bir çox istiqamətlər üzrə inkişafını qeyd edib və bu xüsusda Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın fəaliyyətinə istinad edib.

Ceyhun Bayramov həmçinin ölkələrimizin beynəlxalq müstəvilərdə əməkdaşlığını qeyd edib, bu xüsusda Qoşulmama Hərəkatı çərçivəsində uğurlu fəaliyyətdən bəhs edilib. Bakıda keçirilən Qoşulmama Hərəkatı Gənclər Sammitində Misir nümayəndə heyətinin də iştirakı məmnunluqla səsləndirilib.

Nazir köməkçisi İhab Talaat Nasr Azərbaycana növbəti səfərinin baş tutduğunu söyləyib və ölkədəki inkişafı məmnunluqla qeyd edib. O, Misirin Azərbaycan ilə münasibətlərin inkişafına əhəmiyyət verdiyini vurğulayıb. Mövcud siyasi dialoqun və ikitərəfli təmasların intensivliyinin qorunub saxlanılmasının vacibliyi qeyd edilib.

Görüşdə həmçinin cari ildə Azərbaycan və Misir arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edildiyi vurğulanıb və bu xüsusda qarşılıqlı təbriklər səsləndirilib.

Nazir Ceyhun Bayramov qarşı tərəfə bölgədə mövcud olan münaqişə sonrası vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, azad edilmiş ərazilərin yenidən qurulması ilə bağlı Azərbaycan tərəfindən görülən genişmiqyaslı işlər barədə ətraflı məlumat verib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər üzrə fikir mübadiləsi aparıblar.

Eyni gündə Azərbaycan Respublikası və Misir Ərəb Respublikası Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib. İclasda Azərbaycan tərəfindən nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Misir tərəfindən isə xarici işlər nazirinin Avropa məsələləri üzrə köməkçisi İhab Talaat Nasr başçılıq edib. Siyasi məsləhətləşmələr çərçivəsində əməkdaşlıq istiqamətləri üzrə bir sıra məsələlər ətrafında müzakirələr aparılıb.

# İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib



İyulun 26-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə qərargahın növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan qərargahın rəhbəri Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə keçirilən ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlət başçısının çıxışından irəli gələn vəzifə və tapşırıqları vurğulayıb. Qərargahın fəaliyyətinin planlılıq, operativlik, şəffaflıq kimi prinsiplərə əsaslanaraq daha da təkmilləşdirilməsinin önəmini bildirib.

Sonra 2022-ci il iyulun 5-də Nazirlər Kabineti və Əlaqələndirmə Qərargahı üzvlərinin Suqovuşan və Ağdam istiqamətinə səfəri zamanı müəyyənləşdirilmiş məsələlərə dair müzakirələr aparılıb.

Zəngilan rayonunun Ağalı kənd sakinlərinin qayıdışının birinci mərhələsi üzrə 41 ailənin köçürülməsinə toxunan qərargah rəhbəri Böyük qayıdış prosesinin başlaması ilə əlaqədar qarşıda duran yeni vəzifələri qeyd edib.

İclasda Əlaqələndirmə Qərargahının cari fəaliyyəti ilə bağlı məsələlər, o cümlədən yaşayış məntəqələrinin şəhərsalma sənədlərinin hazırlanması, mühəndis-kommunikasiya və sosial infrastrukturla təmin edilməsi, habelə əhalinin qayıdışının təşkili və dayanıqlı məskunlaşması üzrə məsələlər müzakirə olunub.

Sonda qarşıya qoyulmuş vəzifələrin icrası ilə bağlı zəruri tədbirlər müəyyən edilib və müvafiq tapşırıqlar verilib.

# Sosial Tədqiqatlar Mərkəzi bu ilin birinci yarımilliyi ilə bağlı hesabatını təqdim edib

Sosial Tədqiqatlar Mərkəzində (STM) Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin və Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifovanın iştirakı ilə qurumun 2022-ci ilin birinci yarımilliyinin yekunlarına həsr olunan yığıncağı - hesabat iclası keçirilib.



Sosial Tədqiqatlar Mərkəzindən AZƏRTAC-a bildirilib ki, tədbiri giriş sözü ilə açan STM-in İdarə Heyətinin sədri Zahid Oruc görüşün məqsədinin mərkəzin elmi-analitik və tədqiqat işlərinin dövlətimizin cari və strateji mənafeləri, tapşırıqları ilə uzlaşması vəziyyətinə qiymət vermək olduğunu deyib. Qeyd edib ki, eyni zamanda beyin mərkəzlərinin geniş profil və miqyasda hərtərəfli fəaliyyətinə nəzər salmaq, xüsusilə Vətən müharibəsində parlaq qələbədən sonra regional və beynəlxalq məkanda baş verən sürətli dəyişikliklərə dair qərarqəbuledicilərin STM qarşısında qoyduqları vəzifələrin icrasına dair hesabat hazırlamaqdır.

O, dövlət başçısı tərəfindən yaradılan qurumun fəaliyyətində data əsaslı idarəçilik konsepsiyasına verilən töhfələri sadalayıb. Dövri olaraq müxtəlif mövzularda ictimai rəyin öyrənilməsi, sosial dinamikanın və aparıcı tendensiyaların ölçülməsi, proqnozlaşdırılması sahəsində görülən işlərdən bəhs edib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev mərkəzin əməkdaşları ilə keçirilən ötən görüşdə qaldırılan məsələlərin yüksək keyfiyyətlə və ciddi məsuliyyətlə icra edildiyinə diqqət çəkib, STM-in özünəməxsus dəst-xətinin olduğunu, təqdim edilən sənədlərin xüsusi diqqətlə təhlil edildiyini vurğulayıb. Eyni zamanda aidiyyəti dövlət qurumlarına göndərilən sənədlərin diqqətlə araşdırıldığını və fəaliyyətləri üçün zəruri olan təklif, rəy və siyasət tövsiyələrinə həssaslıqla yanaşıldığını qeyd edib.

H.Hacıyev qurumun fəaliyyətinin cari və gündəlik hadisələr əsasında deyil, dövlətimizin və xalqımızın həyati mənafeləri, sosial-siyasi gündəliyi və 44 günlük Vətən müharibəsindən sonra yaranan yeni regional-beynəlxalq tendensiyalar əsasında qurulduğunu xüsusi vurğulayıb. Qonşu ölkələrdə analoji tendensiyaların daha yaxından izlənilməsi və müqayisəli təhlillərin aparılması, yeni milli ideologiyanın və siyasi kimliyin formalaşmasında Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli fəaliyyətdən bəhs edən Hikmət Hacıyev tədqiqat mərkəzlərinin üzərinə düşən vəzifələrin geniş spektrini göstərib. Xüsusilə Qarabağda daimi sülhün bərqərar edilməsinə və Böyük qayıdış istiqamətində tarixdə misli görünməmiş quruculuq işlərinin xalqımız tərəfindən yüksək qiymətləndirildiyinə, eləcə də itkin düşən şəxslər və mina problemləri ilə əlaqədar dövlət başçısının beynəlxalq miqyaslı fəaliyyətinə diqqəti çəkən Hikmət Hacıyev siyasi institutların əsas öhdəliklərini xatırladıb.

Prezidentin köməkçisi qurumun fəaliyyətinə müsbət qiymət verməklə yanaşı, mərkəzin qarşısında dayanan mühüm vəzifələri də qeyd edib.

Daha sonra mərkəzin təmsilçilərinin müxtəlif rəy və təklifləri dinlənilib, belə görüşlərin dövri əsasda keçirilməsi qərara alınıb.

# HEÇ KİM qanundan üstün ola bilməz

## Prezident İlham Əliyev məmurlara tövsiyə və tapşırıqları ilə yanaşı, ciddi xəbərdarlığını da etdi

Prezident İlham Əliyev yüksək rifaha və mütərəqqi idarəçiliyə xidmət edən islahatlarını davam etdirir. İyulun 25-də Prezident İlham Əliyev daha 3 rayona - Masallı, Lerik, Göygölə yeni icra hakimiyyəti başçıları təyin etdi və hər zaman olduğu kimi, yeni təyin olunmuş icra hakimiyyəti başçılarını qəbul edərək tapşırıqlarını, ciddi tövsiyələrini verdi.

Regionların sosial-iqtisadi inkişafından, iqtisadi layihələrin icrasından söz açan dövlət başçısı, eyni zamanda şəhid ailələri, qazilərə dövlət qayğısından danışaraq bütün məmurlara bununla bağlı ciddi xəbərdarlıqlarını da etdi. Hər zaman olduğu kimi, bu dəfə də Prezident yeni kadrlardan gözləntilərini açıqladı, onların idarəçilikdə daha çox bu məsələlərə üstünlük verməli olduqlarını da bildirdi - vətəndaşlarla bir yerdə olmaq, daim xalqın qayğıları ilə yaşamaq, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizə aparmaq, rayonların sosial-iqtisadi inkişafına töhfə vermək, vətəndaş məmnunluğunu, həmçinin rayonların inkişafı üçün daxili və xarici investisiyaların cəlb edilməsini təmin etmək.

### Vətəndaş amilinə verilən yüksək dəyər

Prezident tərəfindən həyata keçirilən genişmiqyaslı islahatlar, o cümlədən kadr islahatları cəmiyyət həyatı üçün böyük əhəmiyyət kəsb edir. Çünki hansı sahədə kadr islahatları aparılırsa, o sahədə pozitiv dəyişikliklər baş verir və bu da vətəndaşlar tərəfindən razılıqla qarşılanır. Müasir dövrün çağırışlarına cavab verən islahatlar ölkəmizin ümumi inkişafına, məmur-vətəndaş münasibətlərinin sağlam ruhda qurulmasına xidmət edir.

Bu islahatlar ölkə rəhbərinin mütərəqqi islahatlarının tərkib hissəsidir. Hələ illər öncə Azərbaycanda kadr islahatlarına ehtiyacın olduğunu bildirən İlham Əliyev bu prosesləri dəyərləndirərkən deyirdi ki, islahatlar təkmilləşmə, yeni dövrə uyğunlaşma deməkdir. Dünya miqyasında uğurlar əldə etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu nailiyyətlər məhz tərəqqi hesabına əldə edilib.

Yeni kadrlara böyük etimad göstərildiyini söyləyən Prezident vurğulayır ki, son vaxtlar ölkəmizdə gedən çoxşaxəli islahatlar, o cümlədən idarəetmə sahəsində aparılan islahatlar, həmçinin kadr islahatları dövlətin siyasətini və niyyətini göstərir.

Onu da əlavə edək ki, İlham Əliyevin rayonlara yeni təyin edilmiş icra hakimiyyəti başçıları ilə görüşlər keçirməsi və onlara tapşırıqlarını verməsi ölkənin hərtərəfli inkişafında əsas rol oynayan regionların tərəqqisi ilə yanaşı, vətəndaş amilinə verilən yüksək dəyəri də nümayiş etdirir.

Növbəti belə qəbul zamanı da Prezident regionların inkişafına yönələn addımlardan, əldə olunan nəticələrdən, qarşıya qoyulan hədəflərdən, ən əsası, rayon rəhbərlərinin üzərinə düşən vəzifənin yerinə yetirilmə səviyyəsindən bəhs edərək bəzi əvvəlki məmurların məsuliyyətsiz hərəkətlərinin nəticələrini də misal çəkdi.

Prezident dedi ki, həmin keçmiş icra başçıları cinayət məsuliyyətinə cəlb edilib, bəzilərinin hökmü verilib, bəzilərinin işləri məhkəmədədir. Bu da onu göstərir ki, heç kim qanundan üstün ola bilməz: "Mən bütün icra başçılarını vəzifəyə təyin edərkən göstərişlərimdən biri o idi ki, korrupsiyaya, rüşvətxorluğa qarşı biz amansız mübarizə aparmalıyıq və icra başçıları burada nümunə olmalıdırlar. Əfsuslar olsun ki, bəziləri əyri yolla gediblər və bu gün bunun acısını çəkirlər. Bu, hər bir dövlət məmuru üçün dərs olmalıdır".

### "Məmurlar fəaliyyətlərində sosial ədalət prinsipinə əməl etməlidirlər"

İcra başçılarına tövsiyə və tapşırıqlarını verən İlham Əliyev bir daha vurğuladı ki, icra hakimiyyəti başçıları daim insanlarla təmasda olmalı, rayon və kənd camaatının qayğıları ilə yaşamalı, insanları narahat edən problemləri onların dilindən eşitməli və imkan daxilində bu problemləri həll etməlidirlər: "Nəyə gücünüz çatırsa, rayon daxilində həll etməlisiniz. Elə məsələlər var ki, onlar dövlət orqanları tərəfindən həll olunmalıdır. Bu barədə də aidiyyəti dövlət orqanlarına müraciət etməlisiniz - Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti dövlət qurumlarına ki, mövcud problemlər öz həllini tapsın. Əgər hər bir kəndin problemi həll olunarsa, demək olar ki, ölkədə insanları narahat edən ciddi problem qalmayacaq".

Ümumiyyətlə, sosial ədalət, bütövlükdə ədalət prinsipləri cəmiyyətin əsas prinsiplərindən biridir və sağlam cəmiyyətdə ədalət hökm sürür. Prezident də vurğuladı ki, dövlət məmurları ilk növbədə fəaliyyətlərində sosial ədalət prinsipinə əməl etməlidirlər. Çünki bu gün Azərbaycan cəmiyyəti həmrəylik nümayiş etdirir, ölkədə gedən prosesləri dəstəkləyir, Prezidentin xarici və daxili siyasətini dəstəkləyir. Çünki bu siyasət Azərbaycan xalqının rifah halının yaxşılaşmasına istiqamətləndirilib və həyata keçirilən tam müstəqil siyasət ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir. Məhz bu diplomatiya nəticəsində Azərbaycan hərbi və ondan sonra siyasi yollarla Ermənistanın işğalçılıq siyasətinə son qoyaraq tarixi ədaləti bərpa edib.

İcra hakimiyyəti başçıları rayonların inkişafı ilə bağlı təşəbbüs göstərməlidirlər. Xüsusən də şəhid ailələrinə xüsusi diqqət yetirməlidirlər. Necə ki, dövlət tərəfindən göstərilən diqqət kimi…

Prezident bildirdi ki, İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir. Mütəmadi olaraq şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlər keçirilir, onların məişət problemləri dövlət xətti ilə həll olunur. İndiyədək 12 min 500-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, fərdi evlər və minik avtomobilləri verilib. Bu proses hazırda da davam etdirilir.

İlham Əliyev dedi ki, hazırda Bakı, Sumqayıt və Abşeron rayonlarında şəhid ailələrinin evlə təminatı məsələləri artıq yekunlaşmaq üzrədir. Digər rayonlarda da dövlət xətti ilə bu iş görüləcək. Yəni, dövlət öz üzərinə düşən vəzifəni icra edir. O cümlədən şəhid ailələrini, müharibə əlillərini işlə təmin etmək üçün çoxsaylı tədbirlər həyata keçirilir: "Əsas odur ki, yerlərdə də bu kateqoriyadan olan insanlara diqqət göstərilsin. Rayon icra orqanlarının nümayəndələri onlara biganə qalmasınlar, əksinə, daim onların yaşayışı ilə maraqlansınlar, onların məşğulluğu ilə maraqlansınlar… Onlar öz canlarını fəda edib, onlar sağlamlığını itirib, onlar heç nəyə baxmadan, qorxmadan ölümə gedərək Vətənimizi işğalçılardan xilas ediblər. Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun. Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm. Hər bir dövlət məmuru da, bax, eyni hərəkətlər etməlidir".

### Ölkədə qanunsuz əməllərə qarşı mübarizə daha da güclənib

İlham Əliyev bütün məsələlərə aydınlıq gətirərək bir daha söylədi ki, ölkədə qanunsuz əməllərə qarşı mübarizə daha da güclənib. Hazırda idarəetmədə çox ciddi islahatlar aparılır, çox böyük təmizləmə işləri görülür. Neqativ hallara, qanun pozuntusuna yol verən hər kəs cəzalandırılır. Dövlət məmurlarını, yerli icra orqanlarını qanunsuz işlərə təhrik edən insanlar hakimiyyətdən uzaqlaşdırılıb. Ona görə də yeni icra başçıları dövlət məmurları kimi bu hallara çox ciddi fikir verməlidirlər.

Prezident yeni icra hakimiyyəti başçılarının timsalında bütün məmurlara sərt xəbərdarlığını etdi: "Bütün dövlət orqanlarının nümayəndələrinə deyirəm, eyni zamanda qanunsuz işlərlə məşğul olmaq istəyən insanlara deyirəm: Əl çəkin bundan! Cəzalandırılacaqsınız və cəzalandırılırlar. Biz kiminsə tamahına, kiminsə şəxsi maraqlarına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik. Ona görə torpaqların qanunsuz zəbt edilməsi prosesi araşdırılmalıdır. Həm rəhbərlik edəcəyiniz rayonlarda, həm bütün ölkə üzrə, Abşeron yarımadasında, sahilboyu ərazilərdə, bütün rayonlarda araşdırılmalıdır və qanunsuz əməllərə son qoyulmalıdır".

Azərbaycanın çox böyük perspektivləri olduğunu vurğulayan dövlət başçısı bir daha vurğuladı ki, xüsusilə İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərdən sonra müzəffər xalq kimi ləyaqətlə yaşayırıq. Buna görə də ölkədə heç bir narahatedici problemin, heç bir ədalətsizliyin olmaması üçün işlər qaydasında getməlidir. Bunun üçün dövlət məmurları öz vəzifə borclarını şərəflə yerinə yetirməlidir. Əgər bu, baş verməsə, həmin məmur mütləq cəzalandırılacaq: "İmkan verə bilmərik ki, bizim uğurlu inkişafımıza kimsə kölgə salsın, kimsə hansısa yerdə özü üçün rüşvətxorluq yuvası qursun və dövlətimizin əsaslarını sarsıtsın".

Bir sözlə, Prezidentin sosial-iqtisadi və siyasi islahatlarının uğurları göz önündədir. İdarəçilik sisteminin zamanın tələblərinə uyğun təkmilləşdirilməsi gələcəyə daha böyük inamla addımlamağa, yeni-yeni hədəflərin müəyyənləşdirilməsinə əsas verir.

İlham Əliyevin mütərəqqi islahatları isə ölkəmizin dinamik inkişafının gətirdiyi yeni keyfiyyət mərhələsində baş tutur və kompleks xarakter daşıyır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Tarif Şurasının növbəti iclasında bir sıra qərarlar qəbul edilib

Tarif (qiymət) Şurasının iyulun 26-da keçirilən növbəti iclasında aidiyyəti qurumların müraciətlərinə baxılıb və müvafiq qərarlar qəbul edilib.

Tarif Şurasından AZƏRTAC-a bildirilib ki, iclasda benzin və dizel üzrə təchizat tariflərinin müəyyən olunmasına dair SOCAR-ın müraciətinə baxılıb. Qeyd edək ki, aparılan tarif dəyişikliyi benzinin və dizelin pərakəndə satış qiymətlərinə təsir göstərməyəcək və həmin məhsulların mövcud pərakəndə satış qiyməti dəyişmir.

Məlumat üçün bildirək ki, Şuranın indiyədək qüvvədə olan qərarına əsasən, neft məhsulunun topdansatış tarifi (təchizat tarifi də daxil olmaqla) pərakəndə satış yerinədək daşınması ilə bağlı bütün xərclər daxil edilməklə tətbiq edilirdi. Təchizat tarifi isə özündə həm topdansatış məntəqələri üzrə saxlanılma və nəql xərclərini, həm də pərakəndə satış məntəqələrinə çatdırılma xərclərini birlikdə ehtiva etdiyi üçün subyektlər arasında xidmətin yerinə yetirilmə növündən asılı olaraq mübahisəli halların yaranmasına, maliyyə intizamının pozulmasına səbəb olurdu. Məsələ ilə bağlı ötən müddət ərzində müvafiq təhlil işləri aparılıb və bu cür halların aradan qaldırılması məqsədilə benzin və dizel üzrə pərakəndə satış tarifi mövcud 1 manat/litr və 0,80 manat/litr səviyyəsində əvvəlki kimi saxlanılmaqla tarif zəncirində dəyişiklik edilərək topdansatış və pərakəndə satış üzrə təchizat tariflərinin ayrılıqda müəyyən olunması məqsədəuyğun hesab olunub. Belə ki, benzin və dizel üzrə mövcud 18 manat/ton topdansatış təchizat tarifi 20 manat/ton, yanacaqdoldurma məntəqələrinin mövcud 100 manat/ton markası 108 manat/ton müəyyənləşdirilib, həmçinin həmin məhsulların borular vasitəsilə nəqli tarifi 3 manat/ton səviyyəsində müəyyən olunub. Ölkə ərazisində vahid tarif siyasətinin həyata keçirilməsi məqsədilə neft məhsullarının Naxçıvan Muxtar Respublikasına çatdırılmasına topdansatış təchizat tarifindən artıq çəkilən xərclərin qarşılanması məqsədilə subsidiyanın ayrılmasına dair Maliyyə və İqtisadiyyat nazirliklərinin hökumətə təqdim etdiyi təkliflərinin razılaşdırıldığını nəzərə alaraq, bu qərarla təsdiq edilmiş tariflər Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən maliyyələşmə məsələləri ilə bağlı qəbul ediləcək qərarla eyni tarixdən qüvvəyə minəcək.

İclasda həmçinin qanunvericilikdə edilmiş dəyişikliklərə əsasən, "Dövlət qulluğu sertifikatı"nın qüvvədəolma müddətinin hər ili ərzində 5 dəfədən artıq müsabiqədə iştirak üzrə ödənişin dövlət qulluğu vəzifələrinin qrupundan asılı olmayaraq bir iştirak üçün 50 manat səviyyəsində müəyyənləşdirilməsinə, ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul imtahanının bir mərhələdə, bakalavriat səviyyəsinə isə qəbul imtahanlarının iki mərhələdə keçirilməsi, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul üçün yeni test tapşırıqları bazasının işlənməsi, imtahanların təşkili xərclərinin artması kimi məsələlər nəzərə alınmaqla, tələbə qəbulu üzrə yeni xidmətlər üzrə tariflərin müəyyən olunması və bəzi imtahan növləri üzrə isə təsdiq edilmiş tariflərin dəyişdirilməsinə dair Dövlət İmtahan Mərkəzinin müraciətinə baxılıb. Tarif (qiymət) Şurası üzvlərinin təklifləri əsasında il ərzində 5 dəfədən artıq müsabiqədə iştirakla bağlı ödənişin məbləği dövlət qulluğu vəzifələrinin qruplarına uyğun olaraq hər bir mövcud imtahan tarifinin 50 faizi miqdarında (35, 40, 45 və 50 manat) müəyyənləşdirilib. Qərar iyulun 26-dan qüvvəyə minir.

Eyni zamanda orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə, ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinə və tibb təhsili üzrə rezidenturaya qəbul imtahanları, buraxılış imtahanları, həmçinin abituriyentlərin buraxılış imtahanı çərçivəsində əlavə verdikləri Azərbaycan dili (dövlət dili kimi), rus dili və coğrafiya fənləri üzrə fərq imtahanlarına dair, habelə ali və orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə qabiliyyət imtahanları üzrə tarif tənzimlənməsi həyata keçirilib və yeni tarifləri müəyyənləşdirilib. Qanunvericiliyə əsasən yuxarıda qeyd olunan qəbul imtahanlarında ilk dəfə iştirak edən abituriyentlər və iştirak sayından asılı olmayaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları, şəhid ailəsinin üzvləri, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, məcburi köçkün statusu olan şəxslər, I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün iştirak haqqı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir. Xidmət haqları dövlət büdcəsindən maliyyələşdirilməyən Azərbaycan Respublikası vətəndaşları üçün tariflərin artırılması ilə əlaqədar yaranan fərqin 2023-2024-cü illər ərzində dövlət büdcəsi hesabına qarşılanması məsələlərinə dair Maliyyə və İqtisadiyyat nazirliklərinin hökumətə təqdim etdiyi təkliflərin razılaşdırıldığını nəzərə alaraq, tələbə qəbulu ilə bağlı qərarla təsdiq edilmiş tariflər Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən maliyyələşmə məsələləri ilə bağlı qəbul ediləcək qərarı ilə eyni tarixdən qüvvəyə minəcək.

İclasda həmçinin "Azərenerji" ASC-nin Şuraya müraciətinə baxılıb və istehsal olunan elektrik enerjisinin hansı hissəsinin tarifinin tənzimlənmədiyi məsələsinə aydınlıq gətirilməsi və dəqiqləşdirilməsi məqsədilə Şuranın 2021-ci il 16 oktyabr tarixli qərarında redaktə xarakterli dəyişiklik edilib. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ovçuluq biletinin verilməsinə görə dövlət rüsumu müəyyən edildiyindən Nazirlər Kabinetinin Qərarı ilə qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (xidmətlərin) siyahısından ovçuluq biletinin qiyməti çıxarılıb. Bu baxımdan, Tarif (qiymət) Şurasının "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən ovçuluq biletinin qiymətinin tənzimlənməsi barədə" 2008-ci il 30 iyul tarixli və "Ovçuluq biletinin qiymətinin tənzimlənməsi barədə" 2018-ci il 17 may tarixli qərarları ləğv edilib.

Tələbə qəbulu, neft məhsullarının təchizatı və ovçuluq bileti ilə bağlı qərarlar istisna olmaqla digər qərarlar avqustun 1-dən qüvvəyə minir. Tarif (qiymət) Şurasının iclasında həmçinin yeni dövlət qeydiyyatına alınan 337 dərman vasitəsinin qiyməti də təsdiq edilib.

Qeyd edək ki, ticarət adı, farmasevtik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, qablaşdırma miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla indiyədək topdan və pərakəndə satış qiymətləri və qüvvəyə minmə tarixi təsdiq edilən 13 min 369 dərman vasitəsinin tam siyahısı Tarif (qiymət) Şurasının rəsmi internet saytının (www.tariff.gov.az) "Dərman vasitələri" bölməsində (http://tariff.gov.az/documents/DVA.pdf) yerləşdirilib. Qərarlarla Tarif (qiymət) Şurasının rəsmi saytının (www.tariff.gov.az) "Şuranın qərarları" bölməsində tanış olmaq olar.

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

İyulun 26-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2022-ci il 27 may tarixli iclasının protokolu təsdiq olunub.

Sonra seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiyanın yenidən formalaşdırılması məsələsinə baxılıb. Xatırladılıb ki, 2022-ci ilin daimi seçici siyahılarının tərtib olunması və dəqiqləşdirilməsi prosesi yekunlaşdıqdan sonra bir sıra seçki məntəqələrinin ərazisində seçici sayının Seçki Məcəlləsi ilə müəyyən edilmiş saydan çox olması müəyyən olunmuşdu. Bu səbəbdən də komissiya seçici sayı qanunvericiliklə müəyyənləşdirilmiş saydan çox olan seçki məntəqələrinin ərazisində təxirə salınmadan əlavə seçki məntəqələrinin yaradılmasını müvafiq dairə seçki komissiyalarına həvalə etmişdi. Qeyd olunub ki, Mərkəzi Seçki Komissiyasının müvafiq qərarından sonra Seçki Məcəlləsinin tələblərinə ciddi əməl edilməklə gerçəkləşdirilən intensiv və genişmiqyaslı fəaliyyət nəticəsində 103 seçki dairəsi üzrə 832 yeni seçki məntəqəsi yaradılıb və beləliklə, ölkə üzrə ümumi seçki məntəqələrinin sayı 6274-ə çatdırılıb.

İclasda bildirilib ki, Seçki Məcəlləsinin tələblərinə əsasən seçki dairələrinin yaradılması sxemini, onun qrafik təsvirlərini, habelə seçki dairələrinin hüdudlarına dair təklifləri Mərkəzi Seçki Komissiyası tərəfindən yaradılan və mütəxəssislərdən ibarət olan komissiya hazırlayır. Seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə sözügedən komissiyanın işinə Mərkəzi Seçki Komissiyasının sədr müavini rəhbərlik edir və vəzifəsinə görə o, komissiyanın sədri hesab olunur. Mərkəzi Seçki Komissiyasının yeni tərkibdə formalaşması əsas məqsədi seçki dairələrinin qanunvericiliyin tələblərinə uyğun yaradılmasını təmin etmək olan komissiyanın da yeni tərkibdə təsdiq edilməsi zərurətini ortaya çıxarıb. Yuxarıda sadalananlar və Seçki Məcəlləsinin tələbləri əsas götürülərək, seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiya Mərkəzi Seçki Komissiyasının sədr müavininin rəhbərliyi ilə müvafiq komissiya üzvləri və aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət tərkibdə yenidən təsdiq edilib.

Komissiyanın iclasında həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib və cari məsələlərə baxılıb.

**Qərar № 3/10**

## Mərkəzi Seçki Komissiyasının 27 may 2022-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 27 may 2022-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*26.07.2022-ci il*

**Qərar № 3/11**

## Seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiyanın yenidən formalaşdırılması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 29.6-cı maddəsinin tələblərinə görə seçki dairələrinin yaradılması sxemini və onun qrafik təsvirini, seçki dairələrinin hüdudlarına dair təklifləri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası (bundan sonra - Mərkəzi Seçki Komissiyası) tərəfindən yaradılan və mütəxəssislərdən ibarət olan seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiya hazırlayır. Həmin komissiyanın işinə Mərkəzi Seçki Komissiyasının sədr müavini rəhbərlik edir və o, vəzifəsinə görə komissiyanın sədri hesab olunur. Komissiyanın yaradılmasının əsas məqsədi seçki dairələrinin Seçki Məcəlləsinin tələblərinə uyğun yaradılmasını təmin etməkdir.

Hazırda Mərkəzi Seçki Komissiyasının yeni tərkibdə formalaşması həmin komissiyanın da yeni tərkibdə təsdiq edilməsi zərurətini yaratmışdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 29.6-cı maddələrinə uyğun olaraq **qərara alır:**

1. Seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiya aşağıdakı tərkibdə yenidən təsdiq edilsin:

**Komissiyanın sədri**

Rövzət Afət oğlu Qasımov - Mərkəzi Seçki Komissiyası sədrinin müavini

**Komissiyanın üzvləri**

Ramiz Hilal oğlu İbrahimov - Mərkəzi Seçki Komissiyasının üzvü
Qabil Əhməd oğlu Orucov - Mərkəzi Seçki Komissiyasının üzvü
Nailə Şahmərdan qızı Əsgərova - Mərkəzi Seçki Komissiyasının üzvü
Almas Əlisultan qızı Qəhramanlı - Mərkəzi Seçki Komissiyasının üzvü
İlkin Zaur oğlu Şahbazov - Mərkəzi Seçki Komissiyasının üzvü

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin nümayəndəsi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin nümayəndəsi

Bakı Şəhər İcra Hakimiyyətinin nümayəndəsi.

2. Qısa müddət ərzində komissiyanın tərkibinə daxil olacaq mütəxəssislərin ayrılmasının müvafiq qurumlarla razılaşdırılması təmin edilsin.
3. Bu Qərarın 2-ci hissəsinin icrası Mərkəzi Seçki Komissiyası sədrinin müavininə həvalə edilsin.
4. "Seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiyanın yenidən formalaşdırılması haqqında" Mərkəzi Seçki Komissiyasının 2010-cu il 3 avqust tarixli 16/61 saylı Qərarı ləğv edilsin.
5. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*26.07.2022-ci il*

**Qərar № 3/12**

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 22.4.4-cü, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Anar Tanrıverdi oğlu Abbasov 9 saylı Binəqədi ikinci, Aydın Bəşir oğlu Quliyev 82 saylı Ağcabədi, Ülvi Sarif oğlu Hüseynov 97 saylı Goranboy - Ağdam - Tərtər, Tehran Tofiq oğlu Əzizov 113 saylı Şəki şəhər, Kamran Kamal oğlu Rəsulov 115 saylı Şəki kənd ikinci seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Nofəl Mülazim oğlu Əhmədov 9 saylı Binəqədi ikinci, Gülnar Vaqif qızı Cəfərli 81 saylı Beyləqan, Dilsuz Teymur oğlu Nəcəfov 93 saylı Bərdə şəhər, Aqşin Rəcəf oğlu Həziquliyev 97 saylı Goranboy - Ağdam - Tərtər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*26.07.2022-ci il*

# Şuşa tezliklə doğma sakinlərini qarşılayacaq

## Gələn ilin sonlarında öz evlərinə qayıdacaq şuşalıların mədəniyyət paytaxtımızdan xoş sədası gələcək

"Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu, həqiqətdir. Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, Şuşanı biz dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik..."

Prezident İlham Əliyevin ötən il Şuşada görkəmli şair Molla Pənah Vaqifin bərpa edilmiş məqbərəsi önündəki çıxışında qürurla səsləndirdiyi kimi, artıq tarixi şəhərimiz Şuşa sürətlə dirçəlir, ən ümdəsi tezliklə doğma sakinlərinə əbədi qovuşacağının sevincini yaşayır.




### Qayıdışın təntənəli təcəssümü

Şanlı Vətən müharibəmiz sayəsində böyük qəhrəmanlıqla azad edilən 270 illik əzəmətli tarixə malik olan qədim qalamız Şuşanın tarixi şan-şöhrəti özünə qaytarılır.

28 ildən sonra - 2021-ci ilin 14 yanvarında Şuşaya "Zəfər yolu" ilə səfər edən Müzəffər Ali Baş Komandan İlham Əliyev, bu diyara Şuşanın əbədi sakinləri -Natəvanın, Üzeyir bəyin və Bülbülün büstlərini də qaytardı. Bu xanzadə şəhərin əbədi sakinlərinin doğma yurdlarına, bütövlükdə Şuşaya milli ruhun qayıdışının təntənəli təcəssümü oldu...

Çox keçmədən, hər bir azərbaycanlının qürur ünvanı olan Şuşa Prezident İlham Əliyev tərəfindən mədəniyyət paytaxtımız elan edildi. 2021-ci il mayın 7-də imzalanan sərəncamla Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği başlıca məqsədlər kimi müəyyən olundu.

Bu tarixi qərardan dərhal sonra, ötən il mayın 12-si və 13-də Şuşada yenidən şöhrətli "Xarıbülbül" festivalı, avqustun 30-da ənənəvi şeir bayramımız olan "Vaqif Poeziya Günləri", 18 sentyabrda isə Milli Musiqi Günümüz təntənəli şəkildə qeyd edildi.

### Beynəlxalq tədbirlərin möhtəşəm Şuşa yekunu

Sözügedən mədəni tədbirlər ənənəvi olaraq bu il də sənətsevərləri Şuşada başına topladı. Hələ qarşıda da bizi neçə belə möhtəşəm mədəniyyət tədbirləri gözləyir.

Onu da vurğulayaq ki, bu ili Azərbaycan xalqı başdan-başa "Şuşa ili" kimi sevinclə qeyd edir. Qarabağımızın incisi olan bu əzəmətli şəhər mədəni tədbirlərlə yanaşı, beynəlxalq əhəmiyyətli müxtəlif çoxsaylı tədbirlərə də evsahibliyi edərək zəfərin, mədəniyyətin, barışığın, sülhün ismarıc məkanı kimi dünyaya səs salır.

Bu da xoş bir ənənəyə çevrilib ki, Bakıda keçirilən bütün beynəlxalq əhəmiyyətli tədbirlərə mütləq Şuşada yekun vurulur. Ölkəmizə səfər edən beynəlxalq ictimaiyyətin nümayəndələri Şuşaya səfər edərək həm mədəniyyət paytaxtımızda Azərbaycan dövlətinin apardığı böyük bərpa və quruculuq işləri ilə tanış olur, həm də erməni barbarlarının burada 30 il ərzində törətdikləri vandallıqlara əyani şahidlik edirlər.

2023-cü ildə isə bütün türk dünyasının qürur ünvanına çevrilən Şuşa "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olmaq kimi müstəsna missiyanı da şərəflə yerinə yetirəcək.

### Bu tarixdə şuşalılara evlərinin açarları təhvil veriləcək

Təsadüfi deyil ki, işğaldan azad edilmiş torpaqlar arasında ən genişmiqyaslı bərpa işləri də məhz bu qala şəhərimizdə aparılmağa başlanılıb. Hazırda Şuşada geniş quruculuq və bərpa işləri sürətlə davam edir. Qala şəhərimizdə həyata keçirilən bütün bu kompleks işlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa nəzarəti altında həyata keçirilir. Dövlət başçısı Şuşaya mütəmadi səfərlər edərək görülən işlərin gedişatı ilə yerindəcə tanış olur.

Qafqazın incisi Şuşanın Baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur. Baş plan hazırlanarkən şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulub. Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Yaşayış massivində 25 binanın olacağı planlaşdırılır.

Ötən ilin aprelindən şəhərin bərpası Baş plan çərçivəsində sistemli şəkildə həyata keçirilir. Baş plana uyğun olaraq Şuşada yeni məktəb binasının, xəstəxananın, məscidin, beşulduzlu mehmanxananın, konfrans mərkəzinin, televiziya qülləsinin tikintisinə başlanılıb.

Prezidentin Şuşadakı xüsusi nümayəndəsi Aydın Kərimovun məlumatına əsasən, artıq Şuşada ilk yaşayış kompleksinin inşasına başlanılıb. Gələn ilin sonunda Şuşa ilk sakinlərini qəbul edəcək və onlara evlərinin açarları təhvil veriləcək.

### Bərpa olunan tarixi irs

Şuşada olan 200-ə yaxın tarix və mədəniyyət abidəsinin bir hissəsi Ermənistanın işğalı zamanı tamamilə məhv edilib, digər hissəsi isə zədələnib və ya dağıdılıb. Hazırda Şuşanın erməni vəhşiliyinə məruz qalan tarixi, mədəni, dini abidələri də bərpa olunur, əvvəlki görkəminə qaytarılır. Artıq Şuşanın qala divarları və daha 4 abidə bərpa edilib.

İşğaldan azad olunan digər bölgələrdə olduğu kimi, Şuşada da bu istiqamətdə bərpa işlərinin böyük qismi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Bərpası həyata keçirilən belə binalardan biri milli memarlıq ənənələrini özündə əks etdirən Şirin su hamamıdır. Məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə Şuşada yaşadığı ev də yenidən qurulur. Şuşadakı mühüm mədəni-tarixi memarlıq abidələrindən olan Mehmandarovların malikanə kompleksində də tikinti işləri aparılır.

O cümlədən də Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidləri Heydər Əliyev Fondu tərəfindən bərpa olunur.

Şuşada həyata keçirilən istər tikinti-quruculuq işləri, istərsə də mədəniyyət sahəsində görülən kompleks tədbirlər onu göstərir ki, qədim qalamızın dirçəldilməsi, tarixi əzəmətinə qovuşdurulması, eləcə də bütün keçmiş məcburi köçkünlər kimi şuşalıların da doğma yurd yerlərinə qayıdışı dövlət siyasətimizin başlıca prioritetlərindəndir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Diaspor nümayəndələrinin Şuşaya beşinci səfəri başa çatıb

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və təşkilatçılığı ilə 27 ölkədən 130 diaspor nümayəndəsinin Şuşaya beşinci səfəri başa çatıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, "Biz dəmir yumruğun gücü ilə Şuşadayıq" layihəsi çərçivəsində həyata keçirilən növbəti səfər Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının V qurultayında diaspor üzvlərinə tövsiyələrindən sonrakı dövrə təsadüf edib. Dövlət başçısının tövsiyələrində diasporumuzun işğaldan azad edilmiş doğma Qarabağın dirçəldilməsində və inkişafında fəal iştirakının önəmli olduğu bir daha nəzərə çatdırılıb. Qarabağa səfərlərin həm Azərbaycan həqiqətlərinin dünyada təbliğ olunması kimi nəcib missiyaya xidmət etdiyi, həm də dünya ictimaiyyətinin diqqətinin bölgəyə cəlb olunmasına və xarici sərmayənin yatırılmasına ciddi təsir edəcəyi vurğulanıb.








Əllərində Azərbaycan bayraqlarını dalğalandıran soydaşlarımız öz sevinclərini Qarabağa həsr olunmuş xalq və bəstəkar mahnılarını birgə oxumaqla nümayiş etdiriblər. Səfər çərçivəsində diaspor nümayəndələri Şuşanın baş meydanı "Bazarbaşı", Cıdır düzü, erməni vandalizminə məruz qalmış "Güllələnmiş heykəllər"in olduğu meydan, Şuşa Bəyannaməsinin imzalandığı məkan, Xurşidbanu Natəvanın evi, "Xan qızı bulağı", Bülbülün ev-muzeyi, Gəncə Qapısı, Saatlı, Aşağı və Yuxarı Gövhər ağa məscidlərini və digər görməli yerləri ziyarət ediblər və postmüharibə dönəmində qədim şəhərimizdə aparılan yenidənqurma və abadlıq işləri ilə tanış olublar.

Səfərin sonunda ənənəyə uyğun olaraq diaspor nümayəndələri Cıdır düzündə Azərbaycan bayrağını dalğalandırıblar. Onlar bu xoşbəxtliyi xalqımıza bəxş edən Müzəffər Ali Baş Komandana və Azərbaycan Ordusuna təşəkkür ediblər.

Antalya-Azərbaycan Kültür və Həmrəylik Dərnəyinin sədri Ceyran Səttarova Şuşanı ilk dəfə gördüyünü deyib: "Heç vaxt Şuşada olmamışdım. Çox həyəcanlıyıq. Elə hissdir ki, bunu sözlə anlatmaq mümkün deyil. Qürürvericidir, çünki 30 ilə yaxın müddətdən sonra torpaqlarımız öz sahiblərinə qayıtdı. Ömürboyu şəhidlərimizə və qazilərimizə borcluyuq, çünki onlar bizi utancverici vəziyyətdən qurtardılar. Biz də diaspor üzvləri olaraq bundan sonra da Azərbaycanın ədalətli mövqeyini dünyaya çatdırmaq, vətənimizi təbliğ etmək naminə əlimizdən gələn hər şeyi edəcəyik".

İsveçdəki Azərbaycan Qarabağ Cəmiyyətinin təsisçisi Abdulla Əmir Haşimi Cavanşir Şuşa səfərini həyatının zirvəsindəki an kimi dəyərləndirib. "Çünki 207 ildən sonra Azərbaycanda elə sərkərdə tapıldı ki, ölkəmizi misilsiz qələbəyə çatdırdı. Artıq siyasi, diplomatiya və iqtisadi cəhətdən çox güclü olan, sözü dünya çapında qəbul edilən Azərbaycan dünyanın inkişaf edən ölkələri ilə bir sırada dayanır. Fürsətdən istifadə edib, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə və bu qələbənin əldə olunmasında əməyi keçən bütün şəxslərə minnətdarlığımı bildirirəm".

Qeyd edək ki, Diasporla İş üzrə Dövlət Komitəsi 2021-ci ildə dörd dəfə (27 iyul, 17 avqust, 9 oktyabr və 2 dekabr tarixlərində) diaspor nümayəndələrinin Şuşa şəhərinə səfərlərini təşkil edib. "Biz dəmir yumruğun gücü ilə Şuşadayıq" şüarı ilə reallaşan səfərlər Azərbaycan diaspor tarixinin ən mühüm hadisələrindən biridir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Yeni strategiya yeni uğurlara hədəflənib



**Azərbaycan Prezidenti İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" mahiyyət etibarı ilə qarşıdakı illərdə ölkənin bütün istiqamətlərdə inkişafını təyin edən vacib sənəddir. Sənəddə milli prioritetlərin əsas inkişaf istiqamətləri öz əksini tapmışdır.**

Əvvəlcə onu qeyd etmək lazımdır ki, müasir dünya böhran və təhlükələrlə üzləşmək ərəfəsindədir. COVID-in geri dönməsi, meymunçiçəyi deyilən yeni virusun yayılması, üstəlik, bir sıra ölkələr arasında münaqişələrin və qarşıdurmaların müharibə həddinədək dərinləşməsi bəşəriyyətin ciddi çətinliklərlə üzləşəcəyini qaçılmaz edir. Belə mürəkkəb şəraitdə Azərbaycan Prezidentinin sosial-iqtisadi inkişaf strategiyasını imzalaması iki baxış bucağından xüsusi əhəmiyyət kəsb edir: dünyada baş qaldıran böhrandan Azərbaycan iqtisadiyyatını mümkün qədər sığortalamaq və baş verə biləcək gözlənilməz iqtisadi kataklizmlərin qarşısını vaxtında almaq.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında imzaladığı sərəncamda Nazirlər Kabinetinə göstəriş verilir ki, "icrası davam etməkdə olan konsepsiya, strategiya, dövlət proqramı, milli fəaliyyət planları və bu kimi digər sənədlərin strategiya ilə əlaqələndirilməsi istiqamətində zəruri tədbirlər görsün". Bu yerdə qeyd edək ki, Azərbaycan Prezidenti strategiyanın icrasında yeni beyin mərkəzinin iştirakını da vacib sayır. Sənəddə göstərilir ki, strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) həyata keçirsin.

İnkişaf Strategiyasında milli prioritetlərin ən vacib istiqamətləri öz əksini tapmışdır. Eyni zamanda müasir çağırışlara və beynəlxalq standartlara uyğun olaraq Azərbaycanda iqtisadi inkişafın, yeni innovativ iqtisadiyyatın daha geniş çərçivələrdə tətbiqi nəzərdə tutulmuşdur.

Ekspertlər belə hesab edirlər ki, sosial-iqtisadi inkişaf strategiyasının prioritetlərində diqqətçəkən əsas məqamlardan biri iqtisadi innovativ inkişafın daha da genişləndirilməsinə nail olmaqdır. Sənəddə digər məqam istifadə olunan dəyərdən cəmiyyətin daha yaxından faydalanması və bu dəyərin bir hissəsinin gələcək nəsillərə saxlanmasının nəzərdə tutulmasıdır. Göründüyü kimi, faktiki olaraq insan kapitalının inkişafı hesabına innovativ iqtisadiyyatın payının artırılması yaxın 5 il ərzində əsas prioritetlərdən birinə çevriləcək. Ümumiyyətlə, bu sənədin icrası ölkə iqtisadiyyatında 2022-2026-cı illərdə yeni sosial-iqtisadi inkişaf modelinin tətbiq ediləcəyini proqnozlaşdırmağa imkan verir. Ekspertlər belə hesab edirlər ki, ölkəmiz növbəti 5 ildə yeni iqtisadi model çərçivəsində daha fərqli və daha uğurlu nəticələr əldə edəcək. Bu sosial-iqtisadi inkişaf modelinin birinci mərhələsi 2022-2026-cı illəri, ikinci məhrələsi 2027-2030-cu illəri əhatə etməklə, iqtisadiyyatın innovativləşdirilməsinə yönələcək. İnkişaf strategiyasında növbəti 4 ildə ölkə iqtisadiyyatının hər il orta hesabla 3-4, o cümlədən qeyri neft-qaz ÜDM-in illik orta hesabla 5 faiz artması hədəf götürülür. Eyni zamanda özəl sektorun iqtisadiyyatda payının 88 faizə çatdırılması qarşıya məqsəd kimi qoyulur. Bu, kiçik və orta sahibkarların xüsusi qayğıkeşliklə əhatə olunması hesabına mümkün olacaq. Yeri gəlmişkən bildirək ki, sənəddə sahibkarlara dəstək üzrə sərf olunan maliyyə vəsaitinin 20-30 faizinin mikro, 35-45 faizinin kiçik və 25-35 faizinin orta sahibkarlara yönəldilməsi nəzərdə tutulur. Həmçinin sənəddən məlum olur ki, dövlətin başlıca məqsədi daxili bazarda rəqabəti gücləndirmək, yerli istehsalı genişləndirməklə yanaşı, qeyri-neft məhsulları ixracının dəyərinin 2026-cı ildə təxminən 5 milyard dollara yaxınlaşmasına nail olmaqdır.

Ayrı-ayrı sahələrin perspektivinə gəldikdə isə, orta illik artımın kənd təsərrüfatında 4, nəqliyyat sektorunda 5 faizə çatacağı, tranzit yükdaşımalarından əldə olunan gəlirin 2019-cu ilə nisbətən iki dəfə artacağı nəzərdə tutulur. İnformasiya və rabitə sektorunda isə hər il orta hesabla 10 faizdən çox artım proqnozlaşdırılır. Eyni zamanda turizm sektorunda da artım olacaq. Bütövlükdə yeni prioritetlər islahatların növbəti dövründə Azərbaycan iqtisadiyyatını yeni mərhələyə qaldıracaq.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Prezidentin aylıq təqaüdü ilə təmin olunanların sayı bu il 26,3 faiz, son 4 ildə 6,2 dəfə artıb

Dövlət başçısının tapşırıqları əsasında son illər aparılan köklü sosial islahatlar sosial ödənişlərin, o cümlədən Prezidentin aylıq təqaüdü ilə təmin olunanların da əhatə dairəsini xeyli genişləndirib.

2022-ci ilin 1 iyul tarixinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Prezidentin aylıq təqaüdü ilə təmin edilən şəxslərin sayı ötən ilin müvafiq dövrünə (286,7 min nəfər) nisbətən 26,3 faiz, 4 il əvvələ (58 min nəfər) nisbətən isə 6,2 dəfə artaraq 362 minə çatıb.

Qeyd edək ki, son 4 ildə sosial ödənişlərin ciddi şəkildə artırılması ilə yanaşı, yeni təqaüd növləri də yaradılıb: müharibə veteranları, birinci dərəcə əlilliyi olan şəxslərə və əlilliyi olan 18 yaşadək şəxslərə qulluq edənlər, digər kateqoriyalar üçün aylıq təqaüdlər təsis olunub.

Eyni zamanda 44 günlük Vətən müharibəsindən sonra sosial dəstək tədbirləri çərçivəsində həmin müharibənin şəhidlərinin ailə üzvləri, Vətən müharibəsinin veteranları, o cümlədən Vətən müharibəsi əlillərindən ibarət 94 min şəxsə 104 min sosial ödəniş təyin olunub. Həmin ödənişlərin mühüm hissəsini Prezidentin aylıq təqaüdləri təşkil edib.

## Sumqayıt Kimya Sənaye Parkının rezidenti beynəlxalq sertifikatlara layiq görülüb

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti "SOCAR Polymer" MMC beynəlxalq sertifikatlara layiq görülüb.

MMC Avstriyanın "TÜV Austria Cert GmbH" şirkətinin bir neçə "IMS" sertifikatını ("Keyfiyyət İdarəetmə Sistemi", "Ətraf Mühiti İdarəetmə Sistemi", "Peşə Sağlamlığı və Əməyin Təhlükəsizliyini İdarəetmə Sistemi" beynəlxalq standartlarını) alıb.

Qeyd edək ki, "SOCAR Polymer" MMC 2013-cü ildə Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Şirkət Sənaye Parkının ərazisində fəaliyyət göstərən və Kanada, Avstriya texnologiyalarından istifadə etməklə yaradılan müəssisənin illik gücü 184 min ton polipropilen (PP) və 120 min ton yüksək sıxlıqlı polietilen istehsalıdır. İndiyədək "SOCAR Polymer" MMC 984 milyon manatlıq məhsul istehsal edib, bunun da 885 milyon manatlıq hissəsi (90%-i) ixrac edilib.



"SOCAR Polymer" MMC-nin fəaliyyətinin beynəlxalq standartlara cavab verdiyini əks etdirən bu sertifikatlar şirkətin istehsal etdiyi məhsulun ixrac imkanlarının daha da genişləndirilməsinə imkan yaradacaq.

İstehsal olunan məhsullar dünyanın 15 ölkəsinə "Made in Azerbaijan" brendi ilə ixrac olunur. İnvestisiya dəyəri 864 milyon ABŞ dolları olan müəssisədə 750 nəfərdən çox insan daimi işlə təmin edilib.

## Əməkhaqqı fondunda daha 15 faiz artım baş verib

2022-ci ilin yanvar-iyun aylarında Azərbaycanda əməkhaqqı fondu daha 15 faiz artıb.

Bu artımı qeyri-leqal məşğulluğun qarşısının alınması üçün görülən kompleks sosial-iqtisadi tədbirlərin müsbət nəticələri, ardıcıl əməkhaqqı islahatları, əmək müqavilələrinin sayının daimi artması şərtləndirib.

Qeyd olunan pozitiv proseslər ümumilikdə son 4 ildə illik əməkhaqqı fondunun 2,2 dəfə və ya 8 milyard manat artması ilə nəticələnib.

## DSMF-nin gəlirlərində transfertin payı daha 8,55 faiz azalaraq 20,42 faizə enib

Bu ilin 6 ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində ötən ilin müvafiq dövrünə nisbətən 7,3 faiz artım baş verib.

Sistemli sosial-iqtisadi islahatların nəticəsi kimi qeyri-leqal məşğulluğun azalması dinamikası, məşğulluq imkanlarının, əməkhaqlarının ardıcıl artımı sosial sığorta daxilolmalarının da davamlı artımına imkan verib.

Bunun daha bir göstəricisi kimi, DSMF gəlirlərində sosial sığorta daxilolmaları son 6 ayda 21 faiz artıb.

Həmin daxilolmalarda davamlı artım və fondun fəaliyyətinin optimalllaşdırılması, şəffaflığın təminatı dövlət büdcəsindən dövlət öhdəliklərinin ödənilməsi üçün DSMF-yə transfert məbləğinin də 2022-ci ilin yanvar-iyun aylarında 8,55 faiz azalmasına imkan verib.

Ümumilikdə son 4 ildə sosial ödənişlərin davamlı artımına baxmayaraq, dövlət büdcəsindən transfert məbləğinin DSMF büdcəsində payı 4 il əvvəlki 38 faizdən 17,6 faiz azalmaqla fondun tarixində ilk dəfə olaraq 20,42 faizə enib.

Bu da DSMF-nin maliyyə müstəqilliyi və dayanıqlılığının gücləndirilməsi istiqamətində mühüm irəliləyişə nail olunduğunu göstərir.

## Kimya məhsullarının ixracında artım qeydə alınıb

İlin əvvəlindən ötən 6 ay ərzində Azərbaycandan 418,6 min ton kimya sənayesi məhsulları ixrac edilib.



Dövlət Gömrük Komitəsindən (DGK) verilən məlumata görə, ixrac edilən kimya sənayesi məhsullarının dəyəri 188,4 milyon dollara çatıb.

Xatırladaq ki, 2021-ci ilin eyni aylarında ixrac edilən 123,3 min ton kimya məhsullarının dəyəri 35,7 milyon dollar olmuşdu.

## İnvestisiya ünvanını dəyişir

### Bu gün sərmayədarlar Azərbaycanın qeyri-neft sektoruna daha çox maraq göstərirlər

Bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da iqtisadiyyatın dinamikasını təmin edən faktorlardan biri investisiya qoyuluşunun davamlı olmasıdır. Prezident İlham Əliyevin ölkədə geniş iqtisadi islahatlara başlamazdan öncə bu sahədə hüquqi bazasının yaradılması ilə bağlı gördüyü tədbirlər də həmin şərtdən qaynaqlanır. Bununla Azərbaycan postsovet məkanında ən münbit investisiya mühiti olan ölkəyə çevrilmişdir.



Sahibkarlar sərmayə yatırarkən risk etməyi sevməzlər. O səbəbdən sərmayənin etibarlı, yəni qanunla qorunmasına diqqət yetirirlər. Xüsusilə xarici investorlar bu işdə daha həssasdırlar və gəldikləri ölkənin qanunvericilik bazasını diqqətlə öyrənirlər. Bu baxımdan, baxmayaraq ki, xarici sərmayəni cəlb etmək üçün ölkəmizdə mükəmməl qanunvericilik bazası mövcuddur, prosesin davamlı olması əsas şərtdir. Yəni zamanın şərtlərinə, çağırışlarına görə qanunvericilik bazasında dəyişikliklər edilməli və ya yeni qanunlar qəbul edilməlidir. Bununla bağlı Prezident İlham Əliyev iyulun 15-də cari ilin altı ayının yekunlarına həsr olunan müşavirədə demişdir: "Bütövlükdə ölkəmizin investisiya iqlimini daha da yaxşılaşdırmaq üçün nə lazımdırsa, onu da etməliyik. Çünki xarici və yerli investisiyalar olmadan ölkə iqtisadiyyatı inkişaf edə bilməz".

Məlumdur ki, hazırda Qərb-Rusiya qarşıdurması dünyada növbəti iqtisadi böhranın yaranmasına zəmin yaratmışdır. Bir çox iqtisadçılar resessiyanın mütləq baş verəcəyini söyləyirlər. Üstəlik, qeyd edirlər ki, gözlənilən iqtisadi böhranın miqyası və davam etmə zamanı əvvəlkilərdən çox ola bilər. Hazırda əksər ölkələr ehtimal olunan bu təhlükəyə qarşı tədbirlər görür. Sərmayədarlar da bu çətin şəraitdə həm kapitallarını qorumaq, həm də risk etmədən onu artırmaq istəyirlər. Azərbaycan məhz belə investorlar üçün əlverişli və etibarlı ölkədir.

Bu günlər Azərbaycan Sənaye Korporasiyası ilə Almaniyanın "Achenbach Buschhütten" şirkəti arasında alüminium məhsullarının istehsalı üzrə birgə müəssisənin təsis və dəyərləndirilməsinə dair müqavilənin imzalanması da həmin etibarın göstəricisidir. Layihə çərçivəsində Gəncədə illik istehsal gücü 105 min ton olan alüminium yayma məhsulları istehsal olunacaq. Layihənin birinci mərhələsində 132 milyon dollar həcmində sərmayə qoyulması nəzərdə tutulub.

Ölkəmizdə sahibkarlığın inkişafı sayəsində kapital qoyuluşunda daxili sərmayələrin həcmi də getdikcə artır. Təsadüfi deyil ki, bu gün bir çox müəssisələr yalnız yerli sahibkarların vəsaiti hesabına yaradılır. Paralel olaraq birgə müəssisələrin yaradılmasında da yerli iş adamlarımız fəallıq göstərirlər.

Məlumdur ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ən çox xarici investisiya neft-qaz sənayesinə qoyulurdu. Əvvəla, bu sahənin inkişafı böyük perspektivlər vəd edirdi. İkincisi, neft sənayesinə sərmayə qoyuluşu daha cəlbedici və az risklidir və o üzdən xarici investorlar bu sahəyə kapital qoyuluşunda maraqlı olurlar. Digər tərəfdən, neft sektoru qısa zamanda daha çox gəlir əldə etməyə imkan verir. Bu baxımdan 1994-cü il sentyabrın 20-də bağlanan "Əsrin müqaviləsi"nin ölkəmizin gələcək inkişafında əsas şərt olması təsadüfi deyil. Məhz sözügedən müqavilədən sonra ölkə iqtisadiyyatının müxtəlif sahələrinə xarici investisiya qoyuluşu artmağa başlamışdır.

Amma bu gün aparılan iqtisadi islahatlar nəticəsində yaranan münbit investisiya mühiti ölkəmizdə qeyri neft-qaz sektorunu daha cəlbedici etmişdir. Hazırda bu sektorda ən çox sərmayə sənaye parklarına qoyulur. Xəbər verildiyi kimi, iyulun 20-də Prezident İlham Əliyev Sumqayıt Kimya Sənayesi Parkında yeni müəssisələrin açılış və təməlqoyma mərasimlərində iştirak etmişdir. Dövlət başçısına məlumat verilmişdir ki, parkda ümumi investisiyaların həcmi 3,27 milyard dollardan artıq olan 31 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkının rezidentləri tərəfindən 3,1 milyard dollara yaxın sərmayə yatırılıb. Qeydiyyata alınmış 31 rezidentdən 17-si hazırda fəaliyyət göstərir. "Glassica" QSC və "Azərsulfat" MMC-nin müəssisələri ilə birlikdə sənaye parkında fəaliyyət göstərən müəssisələrin sayı 19-a çatacaq. "Glassica" QSC müəssisənin fəaliyyəti üçün 20 milyon manatdan çox investisiya qoyub. Müəssisədə il ərzində 90 milyon ədəd müxtəlif çeşidli rəngli şüşə tara məhsulları istehsal olunacaq. "Azərbaycan Vanhong Ceramics Co" MMC-nin keramik plitələr istehsalı müəssisəsi isə 100 faiz Çin kapitallı layihədir. Layihənin investisiya dəyəri 70 milyon manata yaxındır. İllik istehsal gücü 18,5 milyon kvadratmetr plitə olan müəssisədə 400 işçi çalışacaq. Bu, şirkətin Çindən kənarda qurulan 5-ci müəssisəsidir.

Onu da qeyd edək ki, parkın rezidentləri tərəfindən ümumilikdə 5,86 milyard manatlıqdan çox məhsul satışı həyata keçirilib. Məhsulların 36,7 faizi ixrac olunub. Ümumiyyətlə, Sumqayıt Kimya Sənayesi Parkında məhsul istehsalı və ixracında müsbət dinamika müşahidə edilir. Ötən ilin 6 ayı ilə müqayisədə cari ilin müvafiq dövründə ixrac 1,9 dəfə artıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Arpa idxalı azalıb

İlin birinci yarısında 833 ton arpa idxal edilib.

AZƏRTAC Dövlət Gömrük Komitəsinə istinadla xəbər verir ki, idxal edilən arpanın dəyəri 353 min dollar olub.

Xatırladaq ki, 2021-ci ilin eyni dövründə dəyəri 2,9 milyon dollar olmaqla, 14 min ton arpa idxal edilib.

## Yerli şirkətlər üçün təlim keçirilib

Mərkəzi Bank (AMB), Azərbaycanda İxracın və İnvestisiyanın Təşviqi Agentliyi (AZPROMO), Bakı Fond Birjası (BFB) və "ABB-İnvest" yerli şirkətlər üçün təlim keçiblər.

Təlimdə kapital bazarı ilə bağlı ümumi məlumat, qiymətli kağızların buraxılışı, onların birjada listinqə alınması proseduru və Listinq Məsləhət Proqramı ilə bağlı ətraflı məlumat verilib. Tədbirin əsas məqsədi yerli şirkətlərə alternativ maliyyələşmə üsullarını təqdim etmək və bu istiqamətdə beynəlxalq təcrübəni bölüşməkdir.

Qeyd edək ki, Bakı Fond Birjası əməkdaşlıq etdiyi investisiya şirkətləri və AZPROMO ilə birlikdə kapital bazarı haqqında məlumatlılığın artırılması, yerli biznes mühitində qiymətli kağız buraxılışı təcrübəsinin aşılanması və fond birjasında listinqin təşviq edilməsi məqsədilə mütəmadi olaraq ödənişsiz təlimlər təşkil edir.

# Türkiyə dünyanın taxıl böhranına son qoyur

## Rusiya və Ukraynanın razılığa gəlməsi qardaş ölkənin israrlı səyləri sayəsində mümkün oldu



Türkiyənin vasitəçiliyi sayəsində Moskva və Kiyev Ukrayna limanlarından taxıl ixracı ilə bağlı razılığa gəlib. "Yeni Şafak" nəşri Ankaranın danışıqlar prosesindəki rolunun vacibliyini qeyd edir və bildirir ki, Türkiyənin "tarazlıq" siyasəti öz bəhrəsini verib.

Dünyanın qarğıdalı və buğdaya olan tələbatının təxminən 30 faizini, günəbaxan yağına isə yarıdan çoxunu ödəyən Rusiya ilə Ukraynanın arasındakı münaqişə səbəbindən qlobal ərzaq təchizatı ciddi şəkildə pozulub. Bütün bəşəriyyət üçün vacib olan bu problemin aradan qaldırılması naminə Türkiyə və BMT-nin göstərdiyi birgə səylər nəticəsində Moskva və Kiyev iyulun 22-də İstanbulda "Ukrayna limanlarından taxıl və ərzaq məhsullarının təhlükəsiz daşınması təşəbbüsü" adlı sənəd imzalayıblar.

Qeyd edək ki, Rusiya və Ukrayna birbaşa olaraq qarşılıqlı yox, vasitəçilərlə ayrıca müqavilələr imzalayıblar. Yəni İstanbulda iki fərqli müqavilə bağlanıb - Rusiya, Türkiyə və BMT, Ukrayna, Türkiyə və BMT. Bununla yanaşı, BMT ilə Moskva arasında Rusiya mənşəli taxıl və gübrələrin yaxın dövrdə ixracının asanlaşdırılmasına dair sənəd də imzalanıb.

### İstanbulda koordinasiya mərkəzi qurulacaq

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və BMT-nin baş katibi Antonio Quterreşin iştirakı ilə İstanbulda imzalanan sazişlə Rusiya Ukraynadan taxıl və digər ərzaq məhsullarının Qara dənizdə yaradılacaq təhlükəsiz dəhlizlər vasitəsilə dünya bazarına daşınmasına faktiki olaraq icazə verib.

İlk mərhələdə qonşu zonalarda yerləşdirilmiş minalara görə Qara dənizdəki Ukrayna limanlarını tərk edə bilməyən və alternativ marşrutu olmayan 80-ə yaxın gəminin bələdçi katerlərin köməyi ilə beynəlxalq sulara çıxarılacağı güman edilir. Bu prosedurlar zamanı tərəflər atəşkəs prinsiplərinə hörmətlə yanaşmağı və təhvil verəcək gəmilərin təhlükəsizliyini təhdid etməməyi öhdələrinə götürüblər.

İlk mərhələdə 120 gün müddətinə nəzərdə tutulan, lakin gələcəkdə uzadılması mümkün olan sazişlər çərçivəsində üç mühüm nəticə əldə olunub. Birincisi, Ukraynanın Qara dənizdəki limanları taxıl ixracı üçün yenidən açılacaq. İkincisi, Qara dəniz limanlarından çıxan və gələn gəmilərin silah daşımaması üçün dərhal Ukrayna ərazi sularından kənarda təhlükəsizlik zonası yaradılacaq. Üçüncüsü, təhlükəsiz daşımaların təmin edilməsi və tərəflərin müqavilənin şərtlərinə əməl olunmasına nəzarətin təmin edilməsi üçün İstanbulda koordinasiya mərkəzi yaradılacaq.

### Dünya aclığın astanasında idi

Dünyanın səbirsizliklə gözlədiyi bu razılaşma ərzaq təhlükəsizliyi baxımından böyük əhəmiyyət kəsb edir. İlk növbədə onun sayəsində Ukraynanın anbarlarındakı 25 milyon tondan çox taxıl çürüməkdən və xarab olmaqdan xilas edilib. Ölkə boyu tarlalarda yığılması gözlənilən yeni məhsulları nəzərə alsaq, əminliklə demək olar ki, bu hadisə bəşər tarixində heç vaxt görünməmiş böyük itkilərin qarşısını aldı.

İkincisi, bu müqavilə bütün dünyanın ehtiyac duyduğu taxılın bazarlara təhlükəsiz şəkildə çatdırılmasına yol açır. Bunun sayəsində dünya mümkün qıtlıqdan xilas olur və taxıl bazarlarında tədarük qıtlığına müvəqqəti çarə tapılır.

Digər tərəfdən, Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının cari ilin mart ayında açıqladığı məlumatlara görə, hərbi qarşıdurma başlayandan bəri ərzaq tədarükündəki fasilələr səbəbindən qlobal ərzaq qiymətləri ötən ilin analoji dövrü ilə müqayisədə 34 faiz bahalaşıb. Bu səbəbdən dünyanın bir çox ölkəsi qida sektorunda inflyasiyanın qarşısını ala bilmir. Bu baxımdan, Rusiya və Ukraynanın vasitəçilər vasitəsilə əldə etdiyi razılaşma sayəsində qlobal ərzaq inflyasiyası bir müddət də olsa cilovlanır.

Nəhayət, iqtisadiyyatı ağır zərbə alan və böhrana girən Ukraynanın nöqteyi-nəzərindən bu razılaşma müəyyən miqdarda pulların ölkəyə daxil olmasına yol açır. 2021-ci ilin məlumatlarına görə, Ukraynanın 68 milyard dollarlıq ümumi ixracının 41 faizini (yəni 28 milyard dollar) kənd təsərrüfatı məhsulları təşkil edir. Odur ki, ixracın azalması və inflyasiyanın yüksəlməsi fonunda bu hadisə Ukrayna iqtisadiyyatı və fermerləri üçün həyat xəttinə çevriləcək.

### Rəcəb Tayyib Ərdoğan özünə etimad qazanıb

Türkiyə və BMT Rusiya və Ukraynanın bu məsələdə razılığa gəlməsi üçün iki aya yaxındır ki, birgə səylər göstərir. Sonda tərəflərin razılığa gəlməsi bu səylərin öz bəhrəsini verdiyinin konkret göstəricisidir. Ankaranın vasitəçilik rolunu üzərinə götürməsi isə xüsusi əhəmiyyət kəsb edir.

Rusiya-Ukrayna münaqişəsi başlayandan bəri iki ölkə arasında siyasi tarazlığı milli maraqları oxunda quran Türkiyə, beynəlxalq sistemin bütün təzyiqlərinə baxmayaraq, hər iki tərəflə münasibətləri qoruyub saxlaya bildi və onların etimadını qazandı. Maraqlıdır ki, taxıl böhranının aradan qaldırılmasında həm Moskva, həm də Kiyev vasitəçi kimi ilk gündən israrla heç bir başqa ölkəni deyil, məhz Türkiyəni göstərib.

Müqavilə çərçivəsində İstanbulda taxıl tədarükünün təhlükəsizliyini təmin etmək üçün koordinasiya mərkəzinin yaradılması da Rusiya və Ukraynanın Türkiyəyə etimadından xəbər verir. Burada onu da vurğulamaq lazımdır ki, sazişin bağlanmasına səbəb olan prosesdə Prezident Rəcəb Tayyib Ərdoğanın rusiyalı və ukraynalı həmkarları ilə diplomatik masa arxasında qurduğu etimad münasibətləri mühüm rol oynayıb. Bu baxımdan, BMT-nin baş katibi Antonio Quterreşin bu günlərdə səsləndirdiyi fikri də nəzərdən qaçırmaq olmaz: "Razılaşma Ərdoğanın israrlı səyləri sayəsində əldə edilib".

Hər bir halda bu hadisə Türkiyənin məlum münaqişənin başlanğıcından bəri həyata keçirdiyi tarazlıq siyasətinin nə qədər uğurlu olduğunu, habelə Ankaranın beynəlxalq məsələlərin həllində nə dərəcədə təsirli qüvvəyə çevrildiyini açıq şəkildə göstərir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Keçmiş və gələcək bəşəriyyətin şahidi

## Dünyaşöhrətli fotoqraf Reza Deqatinin 70 illik yubileyi qeyd edilib



İyulun 26-da Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dünyaşöhrətli fotoqraf Reza Deqatinin 70 illik yubileyinə həsr olunmuş "Keçmiş və gələcək bəşəriyyətin şahidi" adlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Reza Deqatinin həyat və yaradıcılığına həsr olunmuş videoçarxı izləyiblər.

Yubiley tədbirində Reza Deqatinin həyat və fəaliyyətindən, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün gördüyü işlərdən, o cümlədən xaricdə və Azərbaycanda təşkil edilən fotosərgilərindən söhbət açılıb.

Tədbirdə çıxış edən mədəniyyət naziri Anar Kərimov Reza Deqatinin 70 illik yubileyinin qeyd edilməsini əlamətdar hadisə kimi dəyərləndirib. Nazir deyib ki, Reza Deqatinin fotoqraf kimi fəaliyyət göstərdiyi 55 il ərzində dünyanın müxtəlif ölkələrində 460-dan çox sərgisi keçirilib. Reza Deqatinin ən böyük əsəri onun həyatıdır. Onun haqqında sənədli və bədii filmlər hazırlanacaq. Reza Deqati dünyanın ən qaynar nöqtələrində olan insandır və gördüyü hadisələri fotoların dili ilə insanlara çatdırır.

Mədəniyyət naziri Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra torpaqlarımızın işğalı, xalqımıza qarşı törədilən soyqırımı zamanı Reza Deqatinin xaricdə işini buraxaraq Azərbaycana gəldiyini vurğulayıb. Nazir deyib ki, Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında Reza Deqatinin xüsusi xidmətləri var. O, 20 Yanvar hadisələrini, Xocalı soyqırımının şahidlərini, eləcə də şəhidlərini



fotolara köçürüb. Onun çəkdiyi fotolarda işğal dövründə Qarabağda ermənilər tərəfindən məhv edilmiş evlər, abidələr və tarixi binalar da əksini tapıb. 44 günlük Vətən müharibəsi zamanı da Reza Deqati Azərbaycanın haqq səsini dünyaya çatdırmaq üçün fədakarlıq göstərib.

Nazir Anar Kərimovun sözlərinə görə, Reza Deqatinin əsərlərinin üç mesajı var: sülh, humanizm və yaddaş.

"Bildiyiniz kimi, Reza Deqati bir çox beynəlxalq mükafatlara layiq görülüb. Dünən də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən "Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çoxillik səmərəli fəaliyyətinə" görə Reza Deqati "Dostluq" ordeni ilə təltif edilib. Bu əlamətdar hadisə ilə bağlı mən Reza Deqatini təbrik edirəm", - deyə nazir fikrini yekunlaşdırıb.

Tədbirdə Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin müxbiri Elnar Məmmədli, Alban-Udi xristian dini icmasının sədr müavini Rafik Danakari çıxış ediblər.

Qeyd olunub ki, Təbrizdə dünyaya göz açan Reza ilk dəfə atasına məxsus fotokameranı əlinə götürəndə hələ 14 yaşı tamam olmamışdı. 1979-cu ildə İranda baş verən xalq hərəkatını öz fotokamerasının yaddaşına köçürmək istəyib. Həmin vaxtdan o, fotojurnalist kimi tanınmağa başlayıb. 1981-ci ildə Fransada sığınacaq tapıb. Dünyanın mədəniyyət mərkəzlərindən olan Paris, mehriban fransızlar Şərq mühitində böyümüş Reza üçün yeni bir dünya açıb.

Fransada bir müddət BMT-nin humanitar proqram üzrə məsləhətçisi vəzifəsində çalışan Reza 1990-cı ildən həyatını birdəfəlik ən keyfiyyətli şəkillərinə görə dünyada məşhur olan və Amerikada nəşr edilən "National Geoqraphic" jurnalı ilə bağlayıb. Jurnalın sifarişlərini yerinə yetirən Reza müxtəlif ölkələrdə olub. Onun səyahət coğrafiyasının xəritəsi geniş və zəngindir. Bosfordan Çin səddinə, Filippindən Mərkəzi Asiyaya, Livandan Əfqanıstana, Ruandadan Sarayevoya, Yəməndən Bosniyaya, Anqoladan Qafqaza səfər marşrutları, müxtəlif ölkələrlə, müxtəlif insanlarla tanışlıq onun həyat tarixçəsinə yeni-yeni səhifələr yazıb. 115-dən çox ölkədə olan Reza dünyanın tanınmış fotojurnalisti kimi çoxdan şöhrət qazanıb.

Çıxışlarda Reza Deqatinin yorulmadan Azərbaycan həqiqətlərini dünyaya çatdırdığı, fədakarlığı vurğulanıb.

Tədbirdə fransız sənət kuratoru və yazıçısı Pierre BonGiovanninin videomüraciəti yayımlanıb.

Sonda çıxış edən Reza Deqati "Dostluq" ordeni ilə təltif olunmasına görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib. O, yubiley tədbirini həyatının unudulmaz günü kimi dəyərləndirib və mərasimin təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Tədbir bədii proqramla davam edib.

# Meymunçiçəyi sürətlə yayılır

## Virus qısa müddət ərzində 75 ölkədə qeydə alınıb

İlk dəfə mayın 7-də İngiltərədə aşkarlanan meymunçiçəyi artıq 75 ölkəyə yayılıb, 17 minə yaxın insanda yoluxma faktı qeydə alınıb. Avropa ölkələrində başlayan meymunçiçəyi virusu qısa müddət ərzində dünyanın digər qitələrinə də keçib.



Son statistikaya görə, İtaliyada 407 nəfərdə meymunçiçəyi xəstəliyi aşkarlanıb. Bu barədə məlumat verən ölkənin Səhiyyə Nazirliyi qeyd edib ki, ölkədə epidemioloji vəziyyət nəzarət altındadır. Yaponiyada da Avropadan qayıdan 30 yaşlı vətəndaşda meymunçiçəyi aşkar edilib. Yoluxmuş şəxs xəstəxanaya yerləşdirilsə də, onun səhhəti barədə hələlik ətraflı məlumat verilməyib.

Virusla bağlı narahatlıq doğuran əsas məqam isə ABŞ-da ilk dəfə uşaqlar arasında meymunçiçəyinin aşkar edilməsidir. Kaliforniya və Vaşinqtonda yaşayan azyaşlılar xəstəxanaya yerləşdiriliblər və müalicələri davam edir.

### Azərbaycanda meymunçiçəyi qeydə alınmayıb

Azərbaycanda meymunçiçəyinə yoluxma halı qeydə alınmayıb. Lakin mütəxəssislər qonşu ölkələrdə virusa yoluxma hallarını, turizm və istirahət mövsümünü nəzərə alaraq, Azərbaycanda da infeksiyaya rast gəlinəcəyini istisna etmirlər. Bu məqamda əsas məsələ ilk yoluxma faktını vaxtında aşkar etməkdir.

Ölkəmizdə epidemioloji vəziyyətə Səhiyyə Nazirliyi tərəfindən ciddi nəzarət edilir. Ehtiyac olarsa, laborator diaqnostika və müalicə üçün bütün imkanlar mövcuddur.

Azərbaycana meymunçiçəyi testləri də gətirilib. Bu günə qədər götürülən test nümunələrində virus aşkarlanmayıb.

### Virusdan necə qorunmaq olar

Mütəxəssislər meymunçiçəyinin geniş yayılmasını virusun mutasiyaya uğraması ilə əsaslandırırlar. O, hava-damcı və təmas yolu ilə yoluxur. Meymunçiçəyinin ilk simptomlarına qızdırma, baş ağrıları, əzələ ağrıları, şişlik və bel ağrısı daxildir. Daha sonra səpgilər və yaralar, adətən, bir-beş gün ərzində üz, əllər, ayaqlar, gözlər və ağızda yaranır. Bu səpgilər qabarcıqlara çevrilir.

Virusun bir çox simptomları suçiçəyi, herpes və ya sifilis kimi digər xəstəliklərlə asanlıqla səhv salına bilər, buna görə də tibbi təsdiq vacibdir. Özündə virusun əlamətlərini görən şəxslər dərhal təcrid olunaraq həkimə müraciət etməlidirlər. Əksər xəstələrdə meymunçiçəyi yüngül formada keçdiyi üçün simptomatik müalicə kifayət edir. Yoluxanların əksəriyyəti 2-4 həftə ərzində sağalır. Xəstəliyi ağır keçirən və ya ağırlaşma riski yüksək olan pasiyentlər isə stasionar şəraitdə müalicə olunmalıdırlar.

Həkimlər meymunçiçəyinə qarşı "Imvanex" peyvəndinin istifadəsini genişləndirməyi tövsiyə edirlər. Bu peyvənd 2013-cü ildən Avropa İttifaqında çiçək xəstəliyinin qarşısının alınması üçün təsdiq edilib. "Imvanex"in insanlarda meymunçiçəyi xəstəliyinin qarşısının alınmasında təsirli olacağı bildirilir. Onun əks-təsirlərinin yüngül və orta dərəcəli olduğu, istifadəsinin faydası risklərindən daha çox olduğu vurğulanır. Meymunçiçəyi çiçək xəstəliyi ailəsinin bir hissəsi olsa da, təxmin ediləndən daha az şiddətlidir. Çiçək xəstəliyinə qarşı peyvəndlərin meymunçiçəyinə qarşı effektivliyi isə 85 faiz sübut edilib.

Xəstəliyin getdikcə daha çox ölkədə qeydə alınmasına, diaqnoz qoyulmasının çətinliyinə baxmayaraq, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) meymunçiçəyinə qarşı kütləvi vaksinasiya aparılmasını hələ ki, tövsiyə etmir.

Meymunçiçəyi virusundan qorunmaq üçün edilən tövsiyələr demək olar ki, COVID-19-la eynidir: tibbi maskadan istifadə etmək, gigiyenik qaydalara əməl etmək və sosial məsafə saxlamaq.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Şəkinin tarixi məkanları ilə tanışlıq yay məktəbi iştirakçılarının ürəyincə olub

XII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları iyulun 26-da, günün ikinci yarısında Şəkinin tarixi məkanları ilə tanış olub, görməli yerlərini gəziblər.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, yay məktəbi iştirakçıları əvvəlcə Azərbaycan memarlığının şah əsərlərindən olan Şəki Xan Sarayını ziyarət ediblər. Tələbələrin diqqətinə çatdırılıb ki, 2019-cu il iyulun 7-də Bakıda keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Bildirilib ki, Şərq memarlığının nadir incisi hesab olunan, XVIII əsrə aid dünya əhəmiyyətli nadir tarix-memarlıq abidəsi olan bu saray xalqımıza xas olan yüksək mədəniyyətin, böyük inkişaf yolu keçmiş xalq tətbiqi sənətinin canlı nümunəsidir. Saray Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi Hüseyn xan Müştağın dövründə, 1761-1762-ci illərdə tikilib. İnşaat texnologiyasına görə dünyada bənzəri olmayan bu sarayın tikintisində mismar və yapışqandan istifadə olunmayıb.

Yay məktəbinin iştirakçıları sarayın önündə xatirə şəkilləri çəkdiriblər.

Tələbələr sonra "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisini gəzib, buradakı tarixi abidələrlə tanış olublar.

Qoruğun ərazisində yerləşən və inşa tarixi XVIII əsrin sonlarına aid edilən "Yuxarı Karvansaray" mehmanxana-kompleksi ilə tanışlıq zamanı məlumat verilib ki, Şərq memarlığı üslubunda tikilən bu kompleks üç yüzədək otaq və zirzəmidən ibarətdir. XVIII-XIX əsrlərdə Yaxın və Orta Şərq ölkələrindən gələn turistlər əsasən bu karvansarayda qalır, ticarətlə məşğul olurdular. Bildirilib ki, hazırda bu abidə mehmanxana kimi fəaliyyət göstərir.

# Kəlbəcər rayonu ərazisində mina partlayışı nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu xəsarət alıb

İyulun 26-sı axşam saatlarında Kəlbəcər rayonu ərazisində mina partlayışı nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu İsbəndiyarov Vüqar Tofiq oğlu xəsarət alıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, o, dərhal hərbi tibb müəssisəsinə təxliyə edilib.

# Kəlbəcər rayonunda Müdafiə Nazirliyinin hərbi hissə komandirinin minaya düşməsi faktı ilə bağlı cinayət işi başlanıb

İyulun 26-sı Kəlbəcər rayonunun işğaldan azad olunmuş ərazisində Müdafiə Nazirliyinin N saylı hərbi hissə komandiri Vüqar İsbəndiyarovun minaya düşməsi barədə məlumat daxil olub.

Kəlbəcər Hərbi Prokurorluğundan AZƏRTAC-a verilən məlumata görə, hərbi prokurorluğun əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış ilkin araşdırmalarla Vüqar İsbəndiyarovun rayonun Cəmilli kəndi ərazisində xidməti vəzifələrini icra edərkən piyada əleyhinə minaya düşməsi nəticəsində ağır dərəcəli bədən xəsarətləri alması müəyyən edilib.

Faktla bağlı Kəlbəcər Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.2.12-ci (qəsdən adam öldürməyə cəhd, milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda istintaq davam edir.





# Mədəniyyət





● Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Teatrı - 140

**Fəaliyyətə başladığı gündən İrəvan Dövlət Azərbaycan Teatrı xalqımızla birlikdə ermənilərin başımıza gətirdiyi müsibətləri yaşamaq məcburiyyətində qalıb... Bu teatrın əməkdaşları həmişə göz yaşı içində gülüblər... Faciələri hazırladıqları tamaşalarda, oynadıqları obrazlarda yox, başlarına gətirilən gerçək müsibətlərdə görüblər... Talelərinə qaçqın, köçkün ömrü də düşüb...**



# Göz yaşı içində gülüş

Küçədən keçən ortayaşlı bir nəfərdən Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Teatrının ünvanını soruşuram. Əli ilə qarşı tərəfdəki ikimərtəbəli həyət evinin birinci mərtəbəsini göstərərək: "Teatrın binası təmir edilir. Burada bir otaq kirayə ediblər. Orada olacaqlar" - deyir. İkimərtəbəli həyət evinin küçəyə açıq olan qapısından birbaşa alçaq tavanlı qaranlıq bir otağa keçirəm. Otaqda xeyli adam var idi. Buradakılar öz aləmlərində idilər. Qızğın müzakirə gedirdi... Girəcəkdə, qapının ağzında kompüterdə işləyən xanıma İrəvan Teatrını axtardığımı bildirirəm. "Düz gəlmisiniz, buradır", - deyir. Otaqda baş tərəfdə oturmuş bir nəfər yad səs eşidən kimi tez ayağa qalxıb, məni köhnə tanışları kimi qarşılayır, mehribancasına yer göstərir. Teatrın direktoru İftixar Piriyev dərhal da söhbətə keçir:

- Çox vaxtında gəlmisiniz. Bu gün bizim üçün əsl bayramdır. Ölkə Prezidenti İlham Əliyev teatrımızın 140 illiyi ilə bağlı sərəncam verib. Həmin şad xəbəri eşidən aktyorlarımız da bu səbəbdən bir yerə cəmləşiblər.

Bu balaca otaqda kimlər yox idi?.. Teatrın qocaman aktrisası, hələ teatr İrəvanda fəaliyyət göstərərkən orada çalışan Səmayə İsmayılova, Əməkdar artistlər Esmiralda Şahbazova, Xatirə Süleymanova, aktyorlar Məhərrəm Musayev, Elnarə Heybətova, Sevinc Hüseynova, Natiq Həziyev, Müdvər Nemətova, Niyaməddin Səfərəliyev, Əmrulla Nurullayev...

C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı 1882-ci il aprelin 2-də irəvanlı müəllif M.İsmayılın "Tamahkarlıq düşmən qazanar" adlı vodevili əsasında hazırlanmış tamaşanın təqdimatı ilə peşəkar fəaliyyətə başlayıb. Tamaşa gimnaziyada oxuyan kasıb tələbələrə maddi dəstək məqsədilə hazırlanmışdı. İlk tamaşanın təsiri İrəvan mədəni mühitinin inkişafında, sonralar bütövlükdə Qərbi Azərbaycanın ziyalılar nəslinin yetişməsində və formalaşmasında mühüm rol oynamışdır.

İrəvan Teatrının səhnəsi Azərbaycanın ən görkəmli teatr xadimləri, mütəfəkkirləri, ədibləri üçün geniş yaradıcılıq meydanı olmuşdur. Onlar xalqımızın maariflənməsi, savadlanması üçün bu səhnənin imkanlarından yetərincə bəhrələnə bilmiş, eyni zamanda öz yaradıcılıq imkanlarını da bu teatrın səhnəsində nümayiş etdirmişlər. Azərbaycan teatr sənətinin inkişafına əvəzsiz töhfələr vermiş qüdrətli sənətkarlar Əli Zeynalov, Ətayə Əliyeva, İsmayıl Dağıstanlı, Kamil Qubuşov, Kazım Ziya, Rza Əfqanlı, Məmmədsadıq Nuriyev, Həsən Mirzəyev, Yusif Yulduz aktyorluq həyatına İrəvan Teatrında başlamışlar.

İftixar Piriyev qeyd edir ki, İrəvan Azərbaycan Teatrının yarandığı gündən çox zəngin repertuarı olub. Həmişə öz səhnəsində dünya dramaturgiyasının incilərinə yer ayırıb. Teatr səhnəsində N.Kamalın "Vətən, yaxud Silistrə" (1908), J.B.Molyerin "Zorən təbib" (1909), H.Heynenin "Əlmənsur" (1913), R.Z. Lətifbəyovun "Köhnə Türkiyə" (1913), A.Qlebovun "İnqa" (1929), Y.O.Nilin "Çinar altında məhəbbət" (1931), A.Korneyçukun "Polad qartal" (1936), A.Puşkinin "Xəsis cəngavər" (1937), B.Lavrenyovun "Hücum" (1937), U.Şekspirin "Otello" (1938), Ş.Saminin "Dəmirçi Gavə" (1939), G.Mdivaninin "Vətən namusu" (1939) və sair əsərlər tamaşaya qoyulub. Yarandığı gündən indiyədək İrəvan Teatrının səhnəsində 400 tamaşa oynanılıb. Xalqımızın başına gələn bəlaları bu sənət məbədi də yaşamaq məcburiyyətində qalıb. 1989-cu ildə Qərbi Azərbaycandan, öz doğma dədə-baba torpaqlarından didərgin salınan soydaşlarımızla birgə deportasiya olunan İrəvan Azərbaycan Teatrına 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin qayğısı sayəsində xüsusi dövlət statusu verilib. Teatrın direktoru onu da xüsusi vurğuladı ki, bu illərdə göstərilən etimadı doğrultmaq üçün daha məhsuldar işləyiblər: "2000-ci ildən bu günədək teatrımızın səhnəsində 100 tamaşaya səhnə həyatı verilib. Azərbaycanın əksər rayonunda olub, əsgərlərimiz qarşısında çıxışlar etmişik. Eyni zamanda Gürcüstanda, Türkiyədə, Dağıstanda qastrollarda olmuşuq. Repertuarımızdakı tamaşalarla xalqımızın mədəniyyətini, tarixini təbliğ etməyə, erməni vandallarının başımıza gətirdikləri müsibətləri göstərməyə çalışmışıq.



Bu illərdə teatrın repertuarında tarixi, vətənpərvərlik, qəhrəmanlıq ruhlu mövzuların daha çox yer almasına çalışmışıq. Aqşin Babayevin "Xilaskar", Hidayətin "İrəvanda xal qalmadı", "Burdan min atlı keçdi", Xalid Hüseynin "Min möhtəşəm günəş", İftixarın "Soyqırımı tarixinin dastanı", "Qanlı qızıl toy", "Qurtuluş dastanı", Sabir Şahtaxtlının "Ölüm həsrəti", S.Elsevərin "Ürəyində arzu tut" tamaşaları tarixi həqiqətləri əks etdirən səhnə əsərləridir. 140 illiyimizin teatr mövsümünü Hidayətin "Buradan min atlı keçdi" əsəri ilə yekunlaşdırdıq. Bu əsəri teatrımızın vizit kartı da adlandırmaq olar. Əsər ardıcıl olaraq 10 dəfə anşlaq səhnə həyatı yaşadı. Qürurverici tamaşalarımız olurdu".

İftixar Piriyev teatra olan dövlət qayğısından danışarkən qeyd etdi ki, onlar Binəqədi rayonu ərazisində yerləşən böyük bir Mədəniyyət Sarayı ilə təmin edilərək, onun yüksək səviyyədə təmirinə sərəncam verilib: "Dövlətin davamlı diqqət və qayğısı bizə yaradıcılıq stimulu verir. Göstərilən diqqətə görə Prezident İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk".

Ömrünü İrəvan Teatrının səhnəsində yaşamış aktrisa Səmayə İsmayılovanı xatirələr keçmişə aparır:

- Həyatımı İrəvan Teatrında keçirmişəm desəm, yanılmaram. Xalqımızın başına gələn bəlaları teatrımız da yaşamaq məcburiyyətində qalıb. Vaxtilə başqa millət arasında fəaliyyət göstərən İrəvan Azərbaycan Teatrı həmişə xalqımızın yüksək mənəvi keyfiyyətlərini, qəhrəmanlıq ənənələrini yaşatmağa çalışdı. Ermənilər normal fəaliyyətimizə imkan verməsələr də, teatr öz yaradıcılıq əzmini heç vaxt itirmədi. Əksinə, bütün çətinliklərə sinə gərərək, daha böyük həvəslə əsl sənət nümunələri yaratdı. Səhnəmizdə hazırlanan bütün tamaşalar həmişə diqqət mərkəzində olub. Hətta erməni müəllifləri hər zaman öz əsərlərinin İrəvan Azərbaycan Teatrının səhnəsində yer almasını arzu edir, buna cani-dildən çalışır və hər bir tamaşanın uğurunu məhz bu kollektivin sənət qüdrətinin hökmü ilə ərsəyə gəldiyini etiraf edirdilər. Amma öz məkrli niyyətlərini də həyata keçirməkdən çəkinmirdilər. Pislik namərdə qaldı. Biz varıq, yaşayırıq və fəaliyyət göstəririk.

Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Teatrı yeni mövsümə hazırlaşır. Şekspirin "Kral Lir" əsəri üzərində məşqlər gedir. Teatr yeni mövsümə təmir olunmuş gözəl bir binada başlayacaq. Hələliksə, 140 yaşlı teatrın fədakar kollektivi qaranlıq otaqda yanan işıq kimi mədəni həyatımıza nur çiləyir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

● Şuşa mədəniyyətinin inciləri

# Vasif Adıgözəlov

**Musiqi mədəniyyətimizə möhtəşəm töhfələr verən Vasif Adıgözəlov bu gün də incəsənət xadimləri, musiqiçilər tərəfindən böyük minnətdarlıqla xatırlanır, əsərləri repertuarlardan düşmür.**



Vasif Adıgözəlov Bakıda doğulub boya-başa çatsa da, ata yurdu Qarabağı heç vaxt unutmayıb. İlk musiqi təhsilini konservatoriyanın nəzdindəki 10 illik musiqi məktəbində piano sinfində alıb. 1953-cü ildə Azərbaycan Dövlət Konservatoriyasına daxil olub. Bəstəkarlıq üzrə Qara Qarayevin, fortepiano üzrə Simuzər Quliyevanın sinfində təhsilini davam etdirib. 1959-cu ildə həmin təhsil ocağını iki ixtisas üzrə bitirib. 1958-ci ildən əmək fəaliyyətinə başlayan sənətkar müxtəlif mədəniyyət ocaqlarında məsul vəzifələrdə çalışıb. Bəstəkarın əməyi hər zaman yüksək qiymətləndirilərək ən yüksək fəxri adlara, orden və medallara layiq görülüb.

Vasif Adıgözəlovun əsərləri nəinki ölkəmizin, dünyanın bir çox yerlərində, o cümlədən Almaniya, Bolqarıstan, Çexiya, Meksika, Kosta-Riko, Venesuela, Kuba, Türkiyə, İran və keçmiş SSRİ respublikalarının musiqi ictimaiyyətinə yaxşı tanışdır.

Bəstəkar 2 operanın - "Ölülər" və "Natəvan", 6 musiqili komediyanın - o cümlədən "Nənəmin şahlıq quşu", bəstəkar Ramiz Mustafayevlə birgə yazdığı "Hacı Qara", "Boşanaq - evlənərik", "Aldın payını, çağır dayını", həmçinin "Odlar yurdu", "Qarabağ şikəstəsi", "Çanaqqala-1915", "Qəm karvanı" oratoriyalarının, 3 simfoniyanın, "Segah" muğam-simfoniyasının, "Mərhələlər", "Afrika mübarizə edir" simfonik poemalarının, 5 instrumental konsertin, çoxlu sayda kamera-instrumental əsərlərin, 100-ə qədər mahnı və romansın, dram tamaşalarına və kinofilmlərə yazılmış musiqinin müəllifidir.

Bəstəkarın yaradıcılığında monumental vokal-simfonik əsərlər də üstünlük təşkil edir. Onun müxtəlif illərdə bəstələdiyi "Odlar yurdu", "Qarabağ şikəstəsi", "Çanaqqala-1915" oratoriyaları xalqın tarixini, onun azadlıq və müstəqillik uğrunda mübarizəsini və qələbəsini tərənnüm edən yüksək vətənpərvərlik ruhunda yazılmış sənət əsərləridir.

İri monumental əsərlərlə yanaşı, bəstəkarın mahnıları da öz səmimi, ecazkar melodiyası ilə xalqımızın ürəyinə yol tapıb. Onun dillər əzbəri olan "Qərənfil", "Bakı", "Xoşum gəlir", "Naz-naz", "Şuşa laylası", "Ana" kimi mahnıları insanın ülvi hisslərinin yüksək bədii təzahürüdür.

Şuşanın, daha sonra bütün Qarabağın işğal edilməsi Vasif Adıgözəlovu son dərəcə sarsıtmışdı. Təsadüfi deyil ki, ömrünün sonlarında bəstələdiyi əsərlərdə kədər notları daha çox sezilirdi. "Qarabağ şikəstəsi" oratoriyası, "Qəm karvanı", "Şuşam laylay" əsərləri, üzərində sərasər on bir il işlədiyi "Natəvan" operası Qarabağ həsrətindən yaranmışdı.

Görkəmli bəstəkar 2006-cı il sentyabrın 16-da dünyasını dəyişib və Fəxri xiyabanda dəfn olunub.

Ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə keçirilən "Xarıbülbül" Musiqi Festivalında Vasif Adıgözəlovun "Qarabağ oratoriyası"na görkəmli bəstəkarın oğlu Yalçın Adıgözəlov dirijorluq edirdi.

***"Azərbaycan"***

● Yaşayan tariximiz

# Gəncənin muzeyləri onun tarixi, maddi və mənəvi dəyərlərinin güzgüsüdür

**Muzeylərin hər bir xalqın tarixi, maddi və mənəvi dəyərlərinin qorunmasında, öyrənilməsində müstəsna əhəmiyyəti var. Tariximizin müxtəlif dövrlərini özündə yaşadan, ona şahidlik edən muzeylər həm də xalqımızın maddi-mənəvi xəzinəsi sayılır. Bu baxımdan son illər Gəncədə aparılan genişmiqyaslı quruculuq işləri yeni muzeylərin yaranması ilə də müşayiət olunur. Hər biri görkəminə, yerləşdiyi binanın möhtəşəmliyinə, qeyri-adi gözəlliyinə və zənginliyinə görə istər sakinlərin, istərsə də qonaqların böyük marağına səbəb olur. Şəhərdə apardığımız sorğular onu deməyə əsas verir ki, dövlət başçısının qırmızı lent kəsdiyi və yüksək qiymətləndirdiyi muzeylər insanların daha çox maraq göstərdikləri məkanlardır.**








Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyevlə söhbət zamanı dedi ki, ata-babalarımızın həyat tərzi, onların yaratdıqları maddi-mədəni abidələr bizim üçün necə maraqlıdırsa, indiki tarix də gələcək nəsillər üçün böyük maraq doğuracaqdır. Söz yox ki, bu məsul vəzifə indi yaradılan muzeylərin üzərinə düşür. Bu baxımdan Gəncədə son illər yaradılan muzeylər öz zənginliyi ilə seçilir. Şəhər icra hakimiyyəti bu muzeylərin müxtəlif tapıntılarla zənginləşdirilməsi üçün müxtəlif tədbirlər həyata keçirir. Məhz bunun nəticəsidir ki, evlərdə saxlanılan və maddi-mədəni irsimizi əks etdirən çoxlu sayda eksponatlar həmin muzeylərə təqdim olunur ki, bu da muzeylərin zənginləşməsinə, tariximizi özündə əks etdirən eksponatların qorunub saxlanmasına səbəb olur.

Gəncəlilərin müqəddəs məkan saydıqları muzeylərdən biri də Ümummilli Lider Heydər Əliyev Mərkəzində yerləşir. Muzey Ulu Öndərin keçdiyi zəngin həyat yolunu və çoxşaxəli fəaliyyətini dolğun əks etdirir. Burada Heydər Əliyevin uşaqlıq və gənclik illəri ilə yanaşı, onun zəngin fəaliyyətinin bütün dövrləri barədə ətraflı məlumat almaq mümkündür. Ulu Öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və Azərbaycan Respublikasının Prezidenti kimi 1993-2003-cü illərdə həyata keçirdiyi böyük işlər, Azərbaycan xalqının rifahı, gözəl gələcəyi naminə apardığı düşünülmüş siyasət, ölkəmizin hərtərəfli sosial-iqtisadi inkişafına yol açan layihələr, ordu quruculuğu, xarici siyasət, mədəniyyət və digər sahələrə dair maraqlı fotolar, müxtəlif sənədlər, o dövrlərə aid kitablar, qəzetlər və digər materiallara muzeydə geniş yer verilib. Burada Ulu Öndərin Gəncə şəhərinə müxtəlif illərdə tarixi səfərlərini əks etdirən kitablar və qəzetlər də nümayiş etdirilir.

Muzeydə Gəncənin son illərdə keçdiyi əsaslı sosial-iqtisadi inkişaf yoluna, Prezident İlham Əliyevin Gəncəyə göstərdiyi diqqət və qayğının bariz nümunələrinə də geniş yer ayrılıb. Ekspozisiyada informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da peşəkarlıqla istifadə olunması diqqəti cəlb edir.

Heydər Əliyev Mərkəzində oxu zalı, elektron kitabxana, xarici dil kursları, "IDEA" İctimai Birliyi resurs mərkəzi, videokonfrans salonu, hərtərəfli təchizatı olan iclas və konfrans zalları var.

Bu gün səfərdən geri dönən hər bir gəncəli şəhərin girişinə - Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə-Kompleksinə yaxınlaşarkən daxili bir qürur, mənəvi rahatlıq duyur. Zaman etibarı ilə qısa bir vaxtda tikilib başa çatan bu möhtəşəm abidə yüksək səviyyədə, tarixi ənənələrə uyğun inşa edilmişdir. Yeni yaradılan bu abidə şəhərin 5 qapısından biri olan "Məqbərə qapısı"nın bərpa olunan variantıdır. Burada sağ cinahda İran-Turan müharibəsinin əks olunduğu pannolarda türk sərkərdəsi Əfrasiyabın fars hökmdarı Keyxosrovu məğlub etməsi və romalıların Gəncəyə hücumu, usta Bəndərin rəhbərliyi ilə gəncəlilərin xarəzmlərə, Cavad xanın isə ruslara qarşı mübarizə səhnələri, sol cinahda isə Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Gəncəyə gəlişi, 1920-ci ilin mayında bolşevizmə qarşı tarixi Gəncə üsyanı və nəhayət, Ümummilli Lider Heydər Əliyevin Gəncədə vətəndaş müharibəsinin qarşısını alması və Milli Qurtuluş hərəkatının Gəncədən başlaması salnaməsi əks olunmuşdur. Kompleksin sol cinahında Ulu Öndər Heydər Əliyevin, sağ cinahda isə Prezident İlham Əliyevin Gəncə ilə bağlı fikirləri həkk olunmuşdur. Kompleksə xüsusi əzəmət verən dəmir darvazalar quraşdırılmışdır.

Darvazalar 1063-cü ildə gəncəli usta İbrahim Osman oğlu tərəfindən düzəldilən Qədim Gəncə qapılarının eskizləri əsasında hazırlanmışdır. Burada həmin qapıların 1139-cu ildə zəlzələ nəticəsində Gəncə dağılarkən gürcü çarı Demetre tərəfindən Gürcüstana aparılması və Kutaisinin Helat Monastırında saxlanması haqqında məlumatla da tanış olmaq mümkündür.

Qalanın hər iki tərəfindəki birinci mərtəbələrdə və yeraltı keçiddə dahi Azərbaycan şairi Nizami Gəncəvinin sələfləri və xələflərinin şəkillərindən ibarət qalereya yaradılmışdır. Gəncənin 26 görkəmli şəxsiyyətinin abidəsi qoyulmuşdur. Muzeyin sağ tərəfində ikinci mərtəbədə Gəncənin hərb tarixi muzeyi yaradılmışdır.

Qalanın üçüncü mərtəbəsində Gəncə əhalisinin məişəti, mədəniyyəti, həyatı haqqında məlumat verən etnoqrafik muzey yaradılmışdır. Tarix boyu sənətkarlıq mərkəzi olmuş Gəncədə 30-dan çox sənət sahəsinin yüksək səviyyədə inkişaf etməsindən xəbər verən nümunələr öz nəfisliyi ilə göz oxşayır.

Qalanın dördüncü mərtəbəsində Gəncənin qədim və zəngin süfrə mədəniyyətini, qonaqpərvərlik ənənələrini yaşatmaq məqsədilə milli kulinariya mətbəxi yaradılmışdır. Muzeydə Gəncə şəhərində mövcud olmuş Azərbaycanda ilk dövlət əhəmiyyətli qədim tikililərin rəsm və fotoları nümayiş etdirilir.

Görkəmi tamamilə dəyişdirilən, gündüzlər gözəlliyi, axşamlar isə işıq selinə bürünməsi ilə göz qamaşdıran Nizami Gəncəvi məqbərəsinin yaxınlığında təkrarolunmaz görkəmi ilə diqqəti cəlb edən bir muzey də var. Heydər Əliyev Fondunun dəstəyi ilə tikilən Nizami Gəncəvi muzeyi Prezident İlham Əliyevin Gəncəyə on ikinci səfəri zamanı açılmışdır.

Burada Ulu Öndər Heydər Əliyev və Nizami Gəncəvi guşələri yaradılmış, şairin həyat və yaradıcılığını əks etdirən monitor quraşdırılmışdır. Muzeydə dahi mütəfəkkirin həyat və yaradıcılığı haqqında geniş məlumatlarla zəngin elektron məlumat köşkü vardır. Nizami Gəncəvinin zəngin irsini əks etdirən eksponatların yerləşdiyi muzeydə Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Nizami Gəncəvinin yubileylərinin keçirilməsi, məqbərəsinin bərpa edilməsi, əsərlərinin tərcümə və tədqiq olunması ilə bağlı sərəncam və qərarları sərgilənir. Dahi şairin 800, 840 illik yubileyləri münasibətilə nəşr olunan kitab və monoqrafiyalar nümayiş etdirilir. Şairin 870 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən nəşr olunan "Xəmsə" və monoqrafiyalar Avstriya, Rusiya, Almaniya, Böyük Britaniya milli kitabxanalarında, Misirin İskəndəriyyə Kitabxanası, Fransanın Strasburq Kitabxanası və ABŞ-ın Metropol Muzeyində qorunan nadir "Xəmsə" əlyazmalarının və miniatürlərinin orijinalları və nüsxələrindən ibarət guşə yaradılmışdır. Muzeydə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən ölkəmizə gətirilmiş orijinal "Xəmsə" əlyazmaları və Qurani-Kərimin ən qədim nümunəsi diqqəti cəlb edir. Nizami Gəncəvinin irsinin öyrənilməsində muzeyin əhəmiyyəti olduqca böyükdür.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti bir müddət Gəncədə fəaliyyət göstərmişdir. Həmin dövrdə müstəqilliyini elan etmiş Xalq Cümhuriyyətinin yerləşdiyi binada zəngin materiallarla təmin edilmiş cümhuriyyət muzeyi yaradılmışdır. Hazırda Azərbaycan Dövlət Aqrar Universitetinin yerləşdiyi binada Azərbaycan Xalq Cümhuriyyətinin üç aylıq Gəncə dövrü haqqında zəngin materiallar nümayiş etdirilir. Burada Azərbaycanın ilk Baş naziri Fətəli xan Xoyskinin iş otağı yerləşir. Otaqda o zamandan qalan əşyalar və sənədlər ilk vaxtlar olduğu kimi qorunub saxlanılır.

Bundan başqa, muzeyin zallarında Həsən bəy Ağayev, Xudadat bəy Rəfibəyli, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov və başqa cümhuriyyət liderlərinin şəkilləri, onların qəbul etdikləri qanunlar və qərarlar nümayiş etdirilir. Həmçinin Qafqaz İslam Ordusunun xilaskar missiyasına və onun komandanı Nuru Paşaya həsr olunan sənədlər də var. Azərbaycanın ilk dövlət xəritəsi və İstiqlal Bəyannaməsi də bu muzeydə qorunub saxlanılır.

Şəhərin mərkəzində klassik memarlıq üslubunda tikilmiş və görkəmi ilə diqqəti cəlb edən bir bina da var. Binanın qarşısındakı bağ və Məhsəti Gəncəvinin möhtəşəm heykəli ümumi ansamblı tamamlayır.

Gəncənin digər muzeyləri də sakinlərin və turistlərin maraq dairəsinə daxildir. Mir Cəlal Paşayevin ev-muzeyi, Nizami Gəncəvinin və İkinci Dünya müharibəsində ilk Sovet İttifaqı Qəhrəmanı olmuş İsrafil Məmmədovun xatirə-ev muzeyləri, Müasir İncəsənət Muzeyi, görkəmli şair Mirzə Şəfi Vazehin ev-muzeyi, eləcə də Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə təmir edilən tarix-diyarşünaslıq muzeyi buraya gələn turistlərin Gəncənin tarixi, onun görkəmli övladları, müasir incəsənəti haqqında dolğun məlumatlar əldə etmələri üçün zəngin eksponatlara malikdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



"İsveçrə "Sürix"i oyun üslubuna görə bizə uyğun olmayan rəqibdir. Hər bir halda Bakıda rəqibi daha yaxından tanıdıq. Səfərə böyük ümidlə gedirik". Bu sözləri "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov UEFA Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində "Sürix"ə qarşı keçiriləcək cavab oyunu üçün İsveçrəyə yollanarkən deyib.

# İsveçrədə "QARABAĞ" ruzigarı

## Ağdam klubu bu gün səfərdə "Sürix" komandası ilə qarşılaşacaq

*UEFA Çempionlar Liqası, 2-ci təsnifat mərhələsi, cavab qarşılaşması*

*21:00 "Sürix" (İsveçrə) - "Qarabağ" (Azərbaycan)*
*Baş hakim: Allard Lindhout (Niderland)*
*Stadion Letziqrund, Sürix*
*İlk oyun: 2:3*

Həqiqətən "Sürix"in əlavə üstünlüyü ondan ibarətdir ki, matç ərzində iki oyun planına dönməyi bacarır.

Bakıda keçirilən ilk matçda rəqib topu təmsilçimizə verib müdafiə olunmaqla kifayətlənərək, yaranmış əks-hücumlardan faydalanmaq istədi. Bundan maksimum yararlanan Ağdam klubu oyunu meydançanın rəqibə aid hissəsinə yıxmaqla, daha çox topa sahib olub "Sürix"in müdafiə xəttini yarmağı bacardı. Xüsusilə, qonaqların heyətində meydanın mərkəzində yer alan Mark Xornuşuxun etdiyi kobud səhvlər "Sürix"in qapısı qarşısında təhlükəli epizodlarla yadda qaldı. Nəticədə rəqib qapısı qarşısında bir neçə dəfə qol epizodu yaradan "Qarabağ" bu vəziyyətlərin 3-nü qola çevirməyi bacardı.

Ağdam təmsilçisinin heyətində Marko Yankoviçin həm toplu, həm də topsuz oyunlardakı çıxışı sayəsində komandamız 3-cü zonada say baxımından da çox qalmağı bacardı. Lakin fasilədən sonra "Sürix" oyun planında dəyişikliyə gedib 4-4-2 taktiki düzülüşə döndü. Meydanın mərkəzində edilən Şeyk Konde dəyişikliyi rəqibin oyununu tamamilə dəyişdi. Daha çox hücumda qalan qonaqlar müdafiənin arxasına edilən ötürmələrlə qapımız qarşısında təhlükəli epizodlar yaşatdılar və yekunda istədikləri nəticə ilə Bakıdan ayrıldılar - 3:2.

Təbii ki, Bakıdakı qarşılaşmada hesab üstünlüyünü qorumamaq Qurban Qurbanovun oyunçu dəyişikliklərində etdiyi səhvlərlə də bağlamaq olar. Çünki birdən 3 və ya 4 futbolçunu əvəz etmək komanda oyununda balansın pozulmasına gətirib çıxara bilər. Bunun "Sürix"lə ilk matçda şahidi olduq.

Çox güman ki, İsveçrədə də 4-3-3 oyun formatı ilə meydana çıxacağı gözlənilən "Qarabağ" yenə də, müdafiənin arxasına atılan toplarda və standart vəziyyətlərdə daha çox diqqətli olmalıdır. Bakıdakı matçda birinci hissənin yarıdan çoxunu təzyiq altında olan qonaqlar arabir əks-hücumlara atılsa da, futbolçularımız onlara təhlükəli epizod yaratmağa imkan vermirdi və üstünlük "Qarabağ"da qalırdı. Təbii ki, meydan sahibləri azarkeş amilini də nəzərə alaraq oyuna sürətli başlamaq istəyəcəklər. İlk yarım saat ərzində daha çox qısa ötürmələrə üstünlük verərək meydanın mərkəzində "Sürix"li futbolçuları yormaq lazımdır ki, matç tempi aşağı düşsün və qarşılaşmaya nəzarəti tam ələ almaq imkanı yaransın. Bunun öhdəsindən gəlmək üçün isə mütləq həm toplu, həm də topsuz oyunda hazırlıqlı, ötürmələrdə daha sürətli olmaq lazımdır.



"Qarabağ" eyni zamanda müdafiə xəttini daha çox meydançanın mərkəzinə çəkərək rəqibə boş zona yaratmamağa çalışmalıdır. Bu oyun planı işə düşərsə, komandamız rəqibə qarşı üstün olmağı bacaracaq. Burada isə daha çox iş Yankoviç və Almeydaya düşəcək. Abdulla Zubirin və İbraima Vadjinin isə tez-tez cinahları dəyişməsi "Sürix"in müdafiə xəttində balansın pozulmasına da səbəb ola bilər. Bu boşluqlardan Kadi Borqes fərdi ustalığı sayəsində yararlanmaq imkanına sahib olar.

Müdafiənin cinahlarında daha sayıq görünən İsveçrə çempionu mərkəzdə heç də uğurlu deyil. Çünki matçın müəyyən hissələrində bəzən sağ və ya sol cinah müdafiəçiləri hücuma qoşularkən itirilən toplardan sonra geriyə qayıtmada ciddi problem yaşayırlar. Belə ki, hücumda çoxalarkən, müdafiə olunmaqda say baxımından geri qalan "Sürix"i komandamız səbirli, həyəcana yol vermədən, hətta məğlub edib Azərbaycan adına daha bir zəfərə imza ata bilər.

Çətin sınaq olsa da, "Qarabağ"ın avrokubok təcrübəsinin də kifayət qədər olduğunu deməliyik.

Bir sözlə, vurduğun qol olsun, "Qarabağ!"

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Füzulidə hərbi hissə elektrik enerjisi ilə təmin edilib

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq işğaldan azad olunmuş digər ərazilər kimi, Füzuli rayonunda da yenidənqurma işləri davam etdirilir.

Bu dəfə Füzulidə növbəti "N" saylı hərbi hissənin elektrik enerjisi ilə təmin edilməsi üçün görülən işlər yekunlaşdırılıb. Çəkilən 35/0,4 kV-luq elektrik xətti vasitəsilə hərbi hissə elektrik enerjisi ilə təchiz olunub.

Mənbəyini Füzuli şəhərindəki 110/35/10 kV-luq yarımstansiyadan götürən xəttin uzunluğu 22,5 km-dir və izolyasiyalı naqillə çəkilib.

Qeyd edək ki, işlərin aparıldığı ərazilər əvvəlcə minalardan təmizlənib.

Füzulidə tikiləcək obyektlərin, yaşayış məntəqələrinin də elektrik enerjisi ilə təchizatı üçün layihələndirmə aparılır. Görüləcək işlər innovativ yeniliklərin tətbiqi ilə müasir standartlara uyğun reallaşdırılacaq.

# Bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı proqnozlaşdırılır

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraiti əsasən yağmursuz keçəcək. Gündüz havanın arabir tutulacağı gözlənilir. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 20-24°, gündüz 30-35° isti, Bakıda gecə 21-23°, gündüz 32-34° isti olacaq. Atmosfer təzyiqi 755 millimetr civə sütunu, nisbi rütubət 55-60 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 23-24° isti, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 24-25° isti olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz saatlarında bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı proqnozlaşdırılır. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 32-37° isti, dağlarda gecə 9-14°, gündüz 17-22° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 32-37° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 17-22° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 17-22° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-22°, gündüz 31-36° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 29-34° isti, dağlarda gecə 8-13°, gündüz 17-22° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 32-37° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Gündüz hava əsasən yağmursuz keçəcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-23°, gündüz 28-33° isti, dağlarda gecə 14-17°, gündüz 20-25° isti olacaq.


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən **Kəlbəcər şəhəri ərazisində yeni 35/0,4 kV-luq yarımstansiya və İdarəetmə Mərkəzinin tikintisi, avadanlıqların quraşdırılması və 35 kV-luq iki dövrəli kabel xəttinin çəkilməsi işlərinin** açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə **"Enerji Construction"** MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 25.07.2022-ci il tarixdə ƏDV daxil 5 927 790,37 manat (beş milyon doqquz yüz iyirmi yeddi min yeddi yüz doxsan manat 37 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***



## "Bank Respublika" ASC səhmdarlarının nəzərinə

**"Bank Respublika"ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 29 avqust 2022-ci il saat 12:00-da Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın baş ofisində keçiriləcək.**

**Gündəlikdəki məsələlər:**

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. "Bank Respublika" Açıq Səhmdar Cəmiyyətinin investisiya qiymətli kağızlarının emitenti olaraq 2021-ci il üzrə illik hesabatının təsdiqi.

***Rəhbərlik***


# Aldığı rüşvət müqabilində ədalətsiz məhkəmə qərarı çıxarmış sabiq hakimin qanunsuz əməlləri ifşa edilib

Sumqayıt Şəhər Məhkəməsinin adından qəbul edilmiş qanunsuz qətnamələrlə əsassız olaraq pensiya təyinatlarının aparılması və digər pozuntulara yol verilməsi faktı ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi və Ədliyyə nazirliklərindən daxil olmuş material üzrə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq aparılır.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, istintaqla müəyyən olunub ki, 2008-2019-cu illərdə Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsində işləmiş İlyas Mahmudovun icraatında olan müxtəlif mülki işlər üzrə iddiaçıların tələblərinin təmin edilməsi barədə bilə-bilə ədalətsiz qətnamə qəbul etməsi müqabilində ayrı-ayrı şəxslərdən rüşvət qismində pul tələb edərək almasına, bununla əlaqədar bilə-bilə iki halda ədalətsiz qətnamə çıxarmasına əsaslı şübhələr var.

Bundan başqa, İlyas Mahmudovun işlədiyi dövr ərzində icraatında olan digər işlər üzrə qəbul etdiyi 25 qətnaməyə əvvəlcədən bilə-bilə yalan məlumatlar daxil etməsinə, əmək stajı və əlilliyin müəyyən edilməsi ilə bağlı hüquqi əhəmiyyətli faktları müəyyən edən qanunsuz məhkəmə aktlarını aidiyyəti qurumlara təqdim edilməsinə nail olmasına, bu hərəkətləri ilə də qanunazidd əsaslarla təyin olunmuş pensiyalar üzrə cəmi 243 min 441 manat məbləğində ödənişin verilməsinə səbəb olmaqla dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan mühüm zərər vurmasına dair əsaslı şübhələr müəyyən edilib.

Toplanmış kifayət qədər sübutlar əsasında İlyas Mahmudova Cinayət Məcəlləsinin 295.1-ci (bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və ya qərardad çıxarma), 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci (təkrar rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilməklə məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Əhəmiyyət kəsb edən digər halların müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Cavanşir Feyziyevə qardaşı

**BƏŞİR FEYZİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Cavanşir Feyziyevə qardaşı

**BƏŞİR FEYZİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5133**
**Sifariş 2042**
**Qiymətı 40 qəpik**